**Təhsil müəssisəsinin adı**

**Təhsil müəssisəsinin əmtəə nişanı**

**_____________BMU-İNHA İkili Diplom Proqramı (BMU-İNHA İDP)___________**
**(Təhsil proqramının adı)**

**Təhsil proqramının akkreditasiyası üzrə özünütəhlilin nəticələri haqqında**

# HESABAT

**Hesabat Bakı Mühəndislik Universiteti**
**(təhsil müəssisəsinin adı)**
**Elmi Şurasının**
**(28 Noyabr 2023-cü il) tarixli iclasının qərarı ilə**
**təsdiq edilmişdir.**

**Tarix: 4 dekabr 2023-cü il**

**Bakı Mühəndislik Universitetinin**
**rektoru Yaqub Piriyev**

**İmza__________________**

**Xırdalan, 2023**

# Mündəricat

**I. Giriş**

1. Təhsil proqramına dair ümumi məlumatlar[1]
2. Təşkilat komissiyasının tərkibi və fəaliyyət qrafiki

**II. Təhsil proqramının özünütəhlili**

3. Özünütəhlil qiymətləndirilməsinin icmalı
4. Təhsil proqramının özünütəhlil nəticələri
5. Təşkilati komissiyanın gəldiyi nəticələr və qeydlər

**III. Özünütəhlil Hesabatına əlavə olunan sənədlər**

[1] Müvafiq hissədə təhsil proqramının məqsəd və vəzifələri kimi spesifik məlumatlar, həmçinin məcburi və seçmə fənlər üzrə öyrənmə nəticələri ( Əlavə 11 də göstərilmiş nümunəvi formaya uyğun olaraq) da öz əksini tapmalıdır.

# I. Giriş

## 1. Təhsil proqramına dair ümumi məlumatlar

| | |
|---|---|
| Təhsil müəssisəsinin adı | Bakı Mühəndislik Universiteti (BMU) |
| Təhsil səviyyəsi | Bakalavr (3+1 modeli) |
| Təhsil Proqramının şifri və adı | |
| Sonuncu proqram akkreditasiyasına dair şəhadətnamənin verilmə tarixi və müddəti | |
| Təhsil müəssisəsinin lisenziyasına dair məlumatlar (dövlət təhsil müəssisələri istisna olmaqla) | |
| Təhsil müəssisəsinin rəhbəri | Yaqub Piriyev |
| Fakültənin adı | -Mühəndislik fakültəsi<br>-Memarlıq və inşaat fakültəsi |
| Təhsil proqramının təhkim olunduğu kafedra(lar) sayı | 9 |
| Təhsil proqramı üzrə təhsilalan kontingenti | **Təhsilalan sayı**<br>Bakalavriat: 386<br>*(hamısı D/S olmaqla)* |
| Təhsil proqramı üzrə hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarı (manatla) | Bakalavriat:<br>D/S: +<br>Ö/Ə: |
| Təhsil proqramı üzrə təlim və tədris prosesinə cəlb edilmiş ştatdakı professor-müəllim (və ya pedaqoji) heyətinin sayı | 32 |
| Təhsil proqramı üzrə əvəzçilik və saathesabı yolu ilə işləyənlərin sayı | Əvəzçilik: 5<br>Saathesabı:16 |
| Təhsil müəssisənin elektron ünvanı və əlaqə telefonu | · beu-inha@beu.edu.az<br>· info@beu.edu.az<br>· Mob: +99451 215-57-34<br>· Tel.: +99412 349-99-66/67 (daxili: 2414) |
| Təhsil müəssisənin WEB ünvanı və digər sosial şəbəkə platformaları | · WEB: http://ddp.beu.edu.az<br>· Facebook: www.facebook.com/ddp.beu.inha<br>· LinkedIn: https://bit.ly/43N5cMH<br>· Instagram: https://bit.ly/40jbFMy |
| Təhsil müəssisənin hüquqi ünvanı | Xırdalan, H. Əliyev 120 |
| Təhsil müəssisənin faktiki ünvanı | Xırdalan, H. Əliyev 120 |

## 2. Təşkilat komissiyasının tərkibi və fəaliyyət qrafiki

Təşkilat komissiyasının tərkibi

| № | A.S.A | Vəzifə | E-mail ünvanı |
|---|---|---|---|
| 1. | Cəfərli Humay Cəfər | BMU-İNHA İDP, Proqram direktoru | hjafarli@beu.edu.az |
| 2. | Yang Hyunjin Gangchae | BMU-İNHA İDP, Layihə rəhbəri (İNHA) | yanghj@inha.ac.kr, hyang@beu.edu.az |
| 3. | Astanov Nurlan Yusif | BMU-İNHA İDP, Proqram katibi | nastanov@beu.edu.az |
| 4. | İbadova Əsmər İlqar | BMU-İNHA İDP, Tədris işləri üzrə mütəxəssis | aibadova@beu.edu.az |
| 5. | Abaslı Nurlanə Fuad | BMU-İNHA İDP, Tələbələrlə iş üzrə mütəxəssis | nabasli@beu.edu.az |
| 6. | Mirzəyev Hüseyn İbrahim | Mühəndislik fakültəsinin dekanı | humirzeyev@beu.edu.az |
| 7. | Əlifov Afər Sabir | Memarlıq və İnşaat fakültəsinin dekanı | aalifov@beu.edu.az |
| 8. | Hümbətov Ramiz Topuş | Avtomatika, telekommunikasiya və energetika kafedrasının müdiri | rahumbatov@beu.edu.az |
| 9. | Əhmədov Azər Dəmir | İnşaat mühəndisliyi kafedrasının müdiri | azehmedov@beu.edu.az |
| 10. | Gül Ətrabə Bayram | Xarici dillər kafedrasının müdiri | egul@beu.edu.az |
| 11. | Əfəndiyev Rakib Feyruz | Riyaziyyat kafedrasının müdiri | refendiyev@beu.edu.az |
| 12. | Əliyev Hümbət Nəbi | Riyaziyyat və informatika kafedrasının müdiri | hualiyev@beu.edu.az |
| 13. | İmanov Elmar Vaqif | Kimya-biologiya kafedrasının müdiri | eimanov@beu.edu.az |
| 14. | Namazov Manafəddin Bəşir | Kompüter və informasiya texnologiyaları kafedrasının müdiri | mnamazov@beu.edu.az |
| 15. | Balayev Xaqan Əlirza | Ümumi fənlər kafedrasının dosenti | xabalayev@beu.edu.az |
| 16. | Bayramlı Razim Baba | Fizika kafedrasının dosenti | rabayramov@beu.edu.az |
| 17. | Hacıyev Ramil Əbdürəhim | Tədris hissəsinin müdiri | rhaciyev@beu.edu.az |
| 18. | İmanova Sevil Novruz | Keyfiyyətin təminatı şöbəsinin müdiri | simanova@beu.edu.az |
| 19. | Həmzəyeva Amaliya Atabəy | Kitabxananın müdiri | ahamzayeva@beu.edu.az |
| 20. | Mirzəyev İlqar Mürsəl | Təsərrüfat şöbəsinin müdiri | ilmirzayev@beu.edu.az |
| 21. | Məmmədov Ruslan Bayram | İnformasiya hesablama mərkəzinin müdiri | rmemmedov@beu.edu.az |

Təşkilat komissiyasının fəaliyyət qrafiki

| № | Komissiyanın üzvü | Fəaliyyət |
|---|---|---|
| 1. | Humay Cəfərli | Özünütəhlil hesabatının hazırlanmasına nəzarət |
| 2. | Yang Hyunjin | Özünütəhlil hesabatının hazırlanmasına nəzarət |
| 3. | Nurlan Astanov | Özünütəhlil hesabatının hazırlanması zamanı müvafiq sənədlərin toplanması;<br>6-cı bəndin, akkreditasiyaya aid olan 4 nömrəli excel sənədlərinin hazırlanması |
| 4. | Sevil İmanova | Özünütəhlil hesabatına yekun rəyin verilməsi |
| 5. | Əsmər İbadova | 1, 2, 3, 4,5,7,8,10,11-ci bəndlərin, akkreditasiyaya aid olan 1, 2 nömrəli excel sənədlərinin hazırlanması |
| 6. | Nurlanə Abaslı | 1, 3, 5, 9-cu bəndlərin, akkreditasiyaya aid olan 2, 3, 5 nömrəli excel sənədlərinin hazırlanması |
| 7. | Ramil Hacıyev | 3-cü bəndin, akkreditasiyaya aid olan 2 nömrəli excel sənədlərinin hazırlanması |
| 8. | İlqar Mirzəyev | 6-cı bəndin, akkreditasiyaya aid olan 4 nömrəli excel sənədlərinin hazırlanması |
| 9. | Hüseyn Mirzəyev | 8-ci bəndin, akkreditasiyaya aid olan 1 nömrəli excel sənədlərinin hazırlanması |
| 10. | Afər Əlifov | 8-ci bəndin akkreditasiyaya aid olan 1 nömrəli excel sənədlərinin hazırlanması |
| 11. | Ruslan Məmmədov | Akkreditasiyaya aid olan 3 nömrəli excel sənədlərinin hazırlanması |
| 12. | Amaliya Həmzəyeva | Akkreditasiyaya aid olan 3 nömrəli excel sənədlərinin hazırlanması |

## II. Təhsil proqramının özünütəhlili

### 3. Özünütəhlil qiymətləndirməsinin icmalı

BMU-İNHA İkili Diplom Proqramı (bundan sonra BMU-İNHA İDP) Təhsildə Keyfiyyət Təminatı Agentliyinin (bundan sonra – Agentlik) 181 nömrəli 14.11.2022-ci il tarixli əmri ilə təsdiqlənmiş metodologiyaya əsaslanaraq qiymətləndirilmişdir. Özünütəhlilin məqsədi təhsil proqramlarının davamlı olaraq təkmilləşdirilməsini, daxili keyfiyyət təminatının qiymətləndirilməsini təmin etmək və ictimaiyyəti təhsilin keyfiyyəti barədə məlumatlandırmaqdır. Təhsil proqramının özünütəhlili Bakı Mühəndislik Universitetinin (bundan sonra BMU) 0661 nömrəli 07.11.2023-cü il tarixli əmri ilə təsdiqlənmiş Təşkilat Komissiyası tərəfindən aparılmışdır. Təşkilat Komissiyasının meyarlar üzrə yekun qiymətləndirmə nəticələri aşağıdakı kimidir[2]:

**1. Təhsil proqramı üzrə təhsilalanların qəbulu**

**1.1 İkili diplom proqramının ümumi məzmunu**

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə təsdiq edilmiş "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nda (bundan sonra "Dövlət Proqramı") əsas istiqamətlərdən biri prioritet ixtisaslar üzrə dünyanın nüfuzlu universitetləri ilə yerli universitetlər arasında beynəlxalq ikili diplom proqramlarının təsis olunmasıdır. Dövlət Proqramı çərçivəsində 28 avqust 2020-ci ildə Bakı Mühəndislik Universiteti (BMU) ilə Koreya Respublikasının (Cənubi Koreya) İNHA Universiteti arasında bakalavriat səviyyəsində mühəndislik ixtisasları istiqaməti üzrə ikili diplom proqramı (bundan sonra BMU-İNHA İDP) imzalanmışdır.

BMU-İNHA İDP təhsil üzrə bir əməkdaşlıq proqramıdır və əsas hədəfi - ən qabaqcıl elmi nailiyyətlərdən, innovativ təlim-tədris texnologiyalarından yararlanaraq, mühəndislik sahəsində Azərbaycanda ən müasir tələblərə cavab verən yeni nəsil mütəxəssislər yetişdirməkdir.

Dörd qəbul ilini əhatə edən bakalavr proqramına "İnformasiya texnologiyaları", "İnşaat mühəndisliyi", "Elektrik mühəndisliyi" və "Elektronika mühəndisliyi" ixtisasları üzrə ümumilikdə müqavilə müddətində 400 nəfərin qəbul olunması nəzərdə tutulmuşdur.

İki tərəfdaş universitet arasında bağlanmış müqaviləyə əsasən, hazırda proqramın dördüncü ilinin icrası davam etməkdədir və 2020/2021, 2021/2022, 2022/2023 və 2023/2024-cü tədris illəri üzrə aparılan qəbulun nəticələrinə əsasən, 386 tələbə 4 ixtisas üzrə İDP-də təhsil almaqdadır.

---

[2] Uyğun meyarlar üzrə qısa icmal müvafiq indikatorların təhlili əsasında aparılmalıdır. Belə ki, hər bir icmal təsdiqedici sənədlər, qoşma və ya keçidlərdən (link) istifadə edilməklə, eləcə də informasiyanın ümumiləşdirilməsi məqsədilə təqdim edilmiş şablon formalar doldurulmaqla müfəssəl hala gətirilməlidir.

3+1 modeli əsasında qurulan proqrama əsasən, tələbələr 3 akademik ili BMU-da, 1 akademik ili - sonuncu kursu isə İNHA Universitetində təhsil almalıdırlar.

Hazırda 61 nəfər 4-cü kurs tələbəsi BMU-da 3 illik tədrisi uğurla başa vuraraq, İNHA Universitetində təhsillərini davam etdirməkdədirlər.

**1.2 İkili diplom proqramına qəbul prosesinin aparılması qaydaları**

İNHA Universiteti və Bakı Mühəndislik Universiteti arasında 28.08.2020-ci il tarixində bağlanan İkili diplom proqramının müqaviləsinə əsasən abituriyentlər, yerli qanunvericiliyin tələb etdiyi kimi, "İkili Diplom" Proqramına müraciət etmək hüququ qazanmaq üçün Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən bakalavr qəbul imtahanından (**"Dövlət Qəbul İmtahanı"**) keçməlidirlər. Abituriyentlərin Dövlət Qəbul İmtahanında toplayacaqları minimum tələb balı hər il Rəhbər Komitə (bundan sonra "RK") tərəfindən müəyyənləşdirilir. Dövlət Qəbul İmtahanında tələb olunan minimum bal toplamış abituriyentlər sonradan İNHA Universiteti tərəfindən təşkil olunan daxili imtahanda - riyaziyyat, fizika və ingilis dili yazılı imtahanında iştirak etməlidirlər. İngilis dili bacarıqlarının yoxlanılması ilk qəbul ili üçün müsahibə şəklində aparılmışdır.

BMU-İNHA İDP-yə qəbul AR Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən bakalavriat pilləsi üzrə qəbul imtahanlarının nəticələri və İNHA Universiteti tərəfindən keçirilən müsabiqə (daxili imtahan) əsasında aparılır. Belə ki, proqrama müraciət etmiş namizədlər:

- Azərbaycan Respublikasının vətəndaşı olmalıdırlar;
- Müvafiq qəbul ili üzrə DİM-in 1-ci ixtisas qrupu imtahanında iştirak etməli və uğurlu nəticə göstərməlidirlər;
- BMU-İNHA İDP-nin hər ixtisas üzrə müəyyən edilmiş müvafiq keçid balını toplamalıdırlar (keçid balları hər il RK iclasında müəyyənləşdirilir);
- İNHA Universitetinin təşkil etdiyi daxili müsabiqədən (yazılı imtahan) uğurla keçməlidirlər: fizika, riyaziyyat və ingilis dili.

İNHA Universiteti müraciətləri yuxarıda qeyd olunan qəbul meyarlara uyğun qiymətləndirir və İkili Diplom Proqrama seçilən və qəbul olan tələbələr, İNHA-nın bakalavr dərəcəsi proqramının tələbələri kimi qeydiyyata alınır. Paralel olaraq, qeydiyyatdan keçən həmin tələbələr BMU-nun bakalavr dərəcəsi tələbələri hesab olunur.

İkili Diplom Proqramı 2020-ci ilin payız semestrindən BMU-ya qəbul olanlardan başlayaraq 2023-cü ilin payız semestrinə qəbul olanlara qədər təhsil almaq üçün nəzərdə tutulmuşdur. Hər il 2020-ci ilin payız semestrindən başlayaraq, İkili Diplom Proqramının bütün qəbul şərtlərinə cavab verən BMU-nun birinci kurs tələbələri olacaq namizədlər arasından proqramın hər bir ixtisası üçün 25 tələbə seçilməsi nəzərdə tutulmuşdur. Müqavilə şərtlərinə əsasən, hər bir proqram ixtisası üçün maksimum 25 tələbəyə icazə verilir. Bir ixtisas üçün nəzərdə tutulmuş maksimum tələbə sayı əldə edilmədikdə, hər iki rəhbərlik fərqli bir maksimum tələbə sayı ilə razılaşa bilərlər. Hər hansı bir belə razılaşma, yazılı şəkildə göstərilmədikdə və rəhbərlik tərəfindən imzalanmadıqda qərar qüvvədən düşmüş olur. Belə ki, 23 Dekabr 2021-ci il tarixində imzalanmış "BMU-İNHA İDP-yə əlavə və dəyişiklik edilməsi barədə Əlavə № 1"də

qəbul kvotasının dəyişdirilməsi barəsində qərar verilmişdir: *"kvota tamamlanmadığı təqdirdə boş qalan yerlərin növbəti ilin kvotasına əlavə edilərək təsdiq edilsin".*

**İllər üzrə İDP-yə qəbul olan tələbə sayı:**

| Qəbul ili | Qəbul olan tələbə sayı |
|---|---|
| 2020-2021 qəbulu | 72 |
| 2021-2022 qəbulu | 89 |
| 2022-2023 qəbulu | 116 |
| 2023-2024 qəbulu | 123 |

İxtisaslar üzrə qəbul olan tələbə sayı:

| İxtisas (2020-ci il qəbulu) | Qəbul olan tələbə sayı |
|---|---|
| İnformasiya texnologiyaları | 25 |
| Elektronika mühəndisliyi | 25 |
| Elektrik mühəndisliyi | 8 |
| İnşaat mühəndisliyi | 14 |

| İxtisas (2021-ci il qəbulu) | Qəbul olan tələbə sayı |
|---|---|
| İnformasiya texnologiyaları | 25 |
| Elektronika mühəndisliyi | 25 |
| Elektrik mühəndisliyi | 18 |
| İnşaat mühəndisliyi | 21 |

| İxtisas (2022-ci il qəbulu) | Qəbul olan tələbə sayı |
|---|---|
| İnformasiya texnologiyaları | 32 |
| Elektronika mühəndisliyi | 32 |
| Elektrik mühəndisliyi | 28 |
| İnşaat mühəndisliyi | 24 |

| İxtisas (2023-cü il qəbulu) | Qəbul olan tələbə sayı |
|---|---|
| İnformasiya texnologiyaları | 35 |
| Elektronika mühəndisliyi | 35 |
| Elektrik mühəndisliyi | 28 |
| İnşaat mühəndisliyi | 25 |

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 1000 sözü keçməməsi məqsədəuyğundur)

## 2. Təhsil proqramları üzrə əvvəlki kvalifikasiyaların tanınması

"Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi (AzMKÇ)" AR Nazirlər kabinetinin 18 iyil 2018-ci il tarixli, 311 nömrəli qərarı ilə təsdiq edilmişdir. Bu sənəd bütün təhsilalanlar, təhsilverənlər və işəgötürənlər üçün hazırlanmışdır və milli kvalifikasiyaların beynəlxalq kvalifikasiyalarla uyğunluğuna xidmət edir.

Kvalifikasiyalar "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq formal, qeyri-formal və informal təhsil nəticəsində əldə olunur.

BMU verilən kvalifikasiyaların keyfiyyətinin və beynəlxalq kvalifikasiyalarla müqayisə oluna bilmə aspektinin xaricdə daha geniş tanınması, insan resurslarının rəqabətqabiliyyətliliyinin və mobilliyinin artırılması yolu ilə təhsilalanların və əməkdaşların milli və beynəlxalq mobilliyini dəstəkləyir.

BMU-da Milli Kvalifikasiyalar Çərçivəsinin 6, 7 və 8-ci kvalifikasiya səviyyələri üzrə kadrlar hazırlanır. Kvalifikasiyalar müvafiq dövlət təhsil standartlarına əsaslanır. Belə ki, **6-cı səviyyəyə** uyğun olaraq bakalavr diplomu verilir. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq hazırda universitetdə formal, qeyri-formal və informal təhsil imkanlarından yalnız birincisindən istifadə edilir.

BMU-da icra olunan İkili diplomun təhsil proqramı ölkədə və dünyada gedən inkişaf və əmək bazarının tələbləri nəzərə alınaraq 4 mühəndislik ixtisası (İnformasiya texnologiyaları, Elektrik mühəndisliyi, Elektronika mühəndisliyi və İnşaat mühəndisiliyi) üzrə Koreya Respublikasının nüfuzlu ali təhsil müəssisəsi olan İNHA Universiteti ilə birlikdə hazırlanmışdır.

Təhsil proqramı BMU və İNHA Universiteti tərəfindən seçilmiş ixtisaslaşmış şəxslər tərəfindən hazırlanmışdır.

Tələbələr məzun olduqdan sonra Koreya Respublikasının İNHA Universiteti tərəfindən müvafiq ixtisaslar üzrə "Information and Communication Engineering", "Electronic Engineering", "Electrical Engineering" və "Civil Engineering", və BMU tərəfindən isə "İnformasiya Texnologiyaları", "Elektrik və elektronika mühəndisliyi" və "İnşaat mühəndisliyi" proqramları üzrə iki diplom almaqları nəzərdə tutulubdur.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 1000 sözü keçməməsi məqsədəuyğundur)

## 3. Təhsil proqramı üzrə tədrisin təşkili

### 3.1 Tədris planında göstərilmiş fənlərin tədris illəri və semestrləri üzrə bölgüsünü əks etdirən tədris qrafiki və tədris illəri üzrə işçi tədris planları

Bütün ixtisaslar (İnformasiya texnologiyaları, Elektrik mühəndisliyi, Elektronika mühəndisliyi və İnşaat mühəndisiliyi) üzrə tədris planında göstərilmiş fənlərin tədris illəri və semestrləri üzrə bölgüsünü əks etdirən tədris qrafiki və tədris illəri üzrə işçi tədris planları mövcuddur.

İxtisasların ETN tərəfindən təsdiq olunmuş təhsil proqramlarında təlim nəticələri aydın göstərilmişdir. Bu sənəddə müəyyən edilən fənlərin təlim nəticələri öz əksini tapmışdır. Fənn proqramları həmin təlim nəticələri əsasında ixtisasların xüsusiyyətləri nəzərə alınaraq hazırlanır. Fənn proqramlarının kafedra iclaslarında, fakültənin Elmi şurasında və universitetin tədris-metodiki şurasında müzakirə olunaraq uyğunluğu yoxlanılır və təsdiq olunur. Bəzi hallarda İNHA universiteti tərəfindən hazırlanmış fənn proqramlarından istifadə olunur.

Fənn proqramları əsasında fənni tədris edən müəllimlər tərəfindən sillabuslar hazırlanır. Semestrlər üzrə hazırlanmış sillabuslar kafedraya təqdim olunur, kafedra iclaslarında müzakirə və təsdiq edilir. Təsdiq olunmuş sillabuslar Google Classroom platforması vasitəsi ilə tələbələrlə paylaşılır. Təhsil proqramındakı ümumi fənlər və ixtisas fənləri semestrlər üzrə 30 AKTS və daha çox olaraq və fənlərin məntiqi ardıcıllığı gözlənilərək fənlərin sayı müəyyənləşdirilir. Semestrdə tədris olunan fənlərin sayı orta hesabla 6-7, həftəlik auditoriya saatı 26-30 saat təşkil edir.

BMU-da tələbələrin istifadə etdiyi elektron məlumat sistemindəki şəxsi kabinetlərində tədrislə bağlı bütün məlumatları əldə etmə imkanları vardır. Tələbələr təhsil aldıqları müddət ərzində ixtisaslarının tədris planları haqqındakı məlumatları (tədris planında semestrlər üzrə nəzərdə tutulmuş fənlər sayı, müvafiq kreditləri və fənləri tədris edəcək müəllimlərin adları) əldə edə bilirlər. Hər bir tələbə tədris ilinin sonunda növbəti tədris ili üçün elektron məlumat sistemindən (TMS) özünün fərdi tədris planını təsdiqləyir və hər semestrin əvvəlində bu tədris planı üzərində dəyişiklik edə bilirlər.

**3.2. Müəllimlərin tədris etdiyi fənləri, mühazirə və məşğələlərə (laboratoriya işlərinə) ayrılan saatların miqdarını, həmin fənlərin semestrlər üzrə tədrisini, həmçinin fənn üzrə tələbələrin sayını özündə əks etdirən müəllimin illik işçi tədris planın mövcud olması vəziyyəti**

EMS-də kafedranın tədris yükü müəyyən olunduqdan və fənləri tədris edən müəllimlər təyin edildikdən sonra müəllimin illik işçi tədris planı sistem tərəfindən avtomatik formalaşır. Bu illik işçi tədris planında hər semestr üçün müəllimin tədris etdiyi fənlər, mühazirə və məşğələlərə (laboratoriya işlərinə) ayrılan saatların miqdarı və dərs üçün qeydiyyatdan keçmiş tələbələrin sayı öz əksini tapır.

**3.3. Tədris növləri üzrə tədrisin təşkilinin uyğunluq dərəcəsi (mühazirə, seminar, laboratoriya işi və praktik məşğələlərin təşkili vəziyyəti)**

Tədris planında fənlərin mühazirələr, seminarlar, praktik məşğələlər və laboratoriya dərsləri şəklində keçirilməsi öz əksini tapır. Bu bölgüdə ixtisasın və fənnin xüsusiyyətləri nəzərə alınır. Mühazirə dərsləri ilə birlikdə mühəndislik ixtisaslarında laboratoriya və praktik məşğələlər, inşaat ixtisasında isə seminar dərslərinə üstünlük verilir.

**3.4. Məsləhət xidmətinin təşkili vəziyyəti**

BMU-da kredit sistemi ilə tədrisin təşkili, AKTS sisteminin tətbiq edilməsi və tələbələrə kömək göstərilməsi məqsədi ilə akademik məsləhətçilər (tyutorlar) xidməti təşkil edilir. Tyutorlar bu sahədə müəyyən təcrübəsi və səriştəsi olan ali təhsilli şəxslər arasından seçilir və rektorun əmri ilə təyin olunur. Tyutorlar tələbələrin hüquqlarını və akademik maraqlarını qoruyurlar, tədris prosesinin təşkili ilə bağlı bütün zəruri məlumatları və sənədləri tələbələrə təqdim edirlər, tələbələrin fərdi tədris planlarının tərtibi üçün onlara məsləhətlər verirlər, ixtisaslar (ixtisaslaşmalar) üzrə illik işçi tədris planlarının tərtibində iştirak edirlər, tələbələrə fərdi tədris planlarında dəyişikliklər aparmasına yardım göstərir və yay semestrinin təşkilində iştirak edirlər. Kafedralar tərəfindən məsləhət xidməti cədvəlləri tərtib olunur və buna əsasən məsləhət xidməti təşkil olunur. Həmçinin İDP-nin tələbələrlə iş üzrə əməkdaşı ("Tələbələrlə iş üzrə

mütəxəssis") daimi olaraq tələbələrlə çalışır və yaranan suallar və problemlərin yerindəcə həll olunmasında böyük rol oynayır. Tələbələrlə iş üzrə mütəxəssis tələbələr tərəfindən akademik və digər inzibati məsələlərlə bağlı ünvanlanan sorğuların araşdırılması və həllinin təmin edilməsi, tələbələrin nizam-intizamı ilə bağlı məsələlərin idarə edilməsi, o cümlədən araşdırılması və intizam tədbirləri səlahiyyəti olan məsul şəxslərə müvafiq nəticələrin tövsiyə edilməsi kimi məsələlərdə və tələbə haqlarının qorunmasının təmin edilməsində iştirak edir.

### 3.5. Müəllimin rəhbərliyi altında tələbələrin sərbəst işinin hazırlanmasının təşkili vəziyyəti

Tələbənin sərbəst işi – tələbənin tapşırıqları müəllimin rəhbərliyi ilə sərbəst və auditoriyadankənar həyata keçirdiyi müstəqil işidir. Tələbələrin sərbəst işlərinin qiymətləndirilməsi AR TN 1060 saylı, 11.09.2008-ci il tarixli əmri ilə təsdiq olunmuş "Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında əsasnamə"nin tələblərinə uyğun olaraq həyata keçirilir. Tələbənin sərbəst işinin növü və forması (fərdi,komanda, qrup tapşırığı və s.) fənni tədris edən müəllim tərəfindən müəyyənləşdirilir. Kredit sistemi ilə tədrisin təşkilində tələbənin sərbəst işi mühüm əhəmiyyət kəsb etməklə, mütəxəssis hazırlığının keyfiyyətinin yüksəldilməsinə xidmət edir. Sərbəst işin ümumi qiymətləndirmədəki payı 10 % təşkil edir. Tələbələr hər semestr bütün fənlərdən sərbəst iş hazırlayırlar.

### 3.6. Stajkeçmənin təşkili vəziyyəti

BMU-nun müəllimləri INHA Universitetində təşkil edilən təlimlərdə iştirak etmişlər. 2022-ci ildə 7 nəfər müəllim İnformasiya texnologiyaları ixtisası üzrə, 2023-cü ildə 16 nəfər isə Elektrik mühəndisliyi və İnşaat mühəndisliyi ixtisasları üzrə Cənubi Koreyada keçirilən təlimdə iştirak etmişdir. 6 həftə davam edən təlimlər ixtisasları əhatə edən mövzuları əhatə etmişdir. Təlimlər qarşılıqlı təcrübə mübadiləsini reallaşdırmaq, professor-müəllim heyəti üçün xüsusi təhsil proqramını təmin etmək, onların bilik və bacarıqlarının İNHA Universitetin təhsil təcrübəsi, həmçinin təcrübəli professorları vasitəsilə daha da inkişafına nail olmaq məqsədi daşıyır.

### 3.7. İmtahan sessiyasının təşkili vəziyyəti

BMU-da imtahan sessiyası AR Nazirlər Kabinetinin 24 dekabr 2013-cü il tarixli, 348 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"na, Elm və Təhsil nazirinin əmrinə və BMU rektorunun əmrinə əsasən təşkil olunur. İmtahan sessiyası müddətində rektorun əmri ilə təşkil olunan İmtahan qərargahı və Apellyasiya komissiyası fəaliyyət göstərir. İmtahanlar əsasən yazılı formada, bəzi fənlər üzrə test formasında təşkil olunur. İmtahan nəticələri imtahan keçirilən gün fənn müəllimi tərəfindən yoxlanılıb EMS-yə daxil edilir. Tələbələr daxil edilən qiymətləri şəxsi kabinetlərində görürlər. Tələbələrin apellyasiya müraciətləri operativ şəkildə araşdırılıb cavablandırılır. Sessiya yekunlaşdıqdan sonra imtahanların nəticələrinə dair yekun

hesabatlar hazırlanıb Elm və Təhsil Nazirliyinə göndərilir. İmtahanların nəticələri fakültə, universitet Elmi şura və İDP-nin komandası arasında müzakirə edilir.

### 3.8. Yay semestrinin təşkili vəziyyəti

Yay semestri hər ixtisas üzrə birinci, ikinci, və üçüncü tədris ilində təşkil edilir. Yay semestri ərzində İNHA Universitetindən professor-müəllim heyəti tədrisə cəlb olunur. Yay semestri 2021-ci ildə onlayn, 2022-ci ildən etibarən isə BMU-da təşkil edilir. 2022-ci ildə 9 nəfər professor, 2023-cü ildə isə 18 nəfər professor-müəllimin BMU-ya səfəri baş tutmuşdur.

2021/2022-ci tədris ilinin yaz semestrinin davamı olan bu dərslər 2021/2022-ci tədris ilinin imtahan sessiyası yekunlaşdıqdan sonra BMU-da 3 həftə müddətində 11-29 iyul 2022-ci il tarixləri arası baş tutmuşdur. BMU-İNHA İDP-nin həm 2020-ci il qəbul qrupu, həm də 2021-ci il qəbul qrupu üzrə yay semestrində keçirilmiş fənlər və həmin fənlər üzrə İNHA tərəfindən təyin edilmiş 9 nəfər professor-müəllim heyətinin adları aşağıdakı cədvəldə verilmişdir:

| İNHA professor-müəllim heyətinin adı | Tədris edilmiş fənnin adı | Cohort | Fənnin aid olduğu ixtisas |
|---|---|---|---|
| Jaehak Chung | Siqnallar və Sistemlər | 2020 | - "İnformasiya texnologiyaları"<br>- "Elektrik mühəndisliyi"<br>və "Elektronika mühəndisliyi"<br>(potok formasında) |
| Kwangsub Yoon | İKT-ya giriş | 2021 | "Elektronika mühəndisliyi" |
| SangBang Choi | Rəqəmsal dövriyyələr | 2020 | "Elektrik mühəndisliyi" və "Elektronika mühəndisliyi" (potok formasında) |
| Jaehyun Park | Rəqəmsal dövriyyələr | 2020 | "İnformasiya texnologiyaları" |
| | İKT-yə giriş | 2021 | "İnformasiya texnologiyaları" |
| Paikkyun Shin | İKT-yə giriş | 2021 | "Elektrik mühəndisliyi" |
| Changkyu Lee | Ətraf mühit mühəndisliyi və labaratoriya | 2020 | "İnşaat mühəndisliyi" |
| Woosug Cho | Ilkin müşahidə və praktika | 2020 | "İnşaat mühəndisliyi" |
| Savar Abdullaev | Yaradıcı düşüncə və problem həlli | 2021 | - "İnformasiya texnologiyaları"<br>- "Elektrik mühəndisliyi"<br>və "Elektronika mühəndisliyi"<br>(potok formasında) |
| Seungwoo Han | Yaradıcı düşüncə və problem həlli | 2021 | "İnşaat mühəndisliyi" |

2022/2023-cü tədris ilinin yay semestri üzrə Koreya Respublikasının İNHA Universitetindən səfər edən 18 nəfər İNHA Universitetinin professor-müəllim heyəti 10-28 iyul 2023-cü il tarixləri aralığında BMU-da tədris aparmışdır.

BMU-İNHA İDP-nin həm 2020-ci, həm 2021-ci, həm də 2022-ci il qəbul qrupu üzrə yay məktəbində keçirilən fənlər və həmin fənlər üzrə İNHA tərəfindən təyin edilmiş 18 nəfər professor-müəllim heyətinin adları aşağıdakı kimidir:

| İxtisas | 2022-ci qəbul ili qrupu | 2021-ci qəbul ili qrupu | 2020-ci qəbul ili qrupu |
|---|---|---|---|
| **İnformasiya texnologiyaları** | Yaradıcı düşüncə və problem həlli **(Sarvar Abdullayev)** | Rəqəmsal dövriyyələr **(Jaehyun, Park)** | Rəqəmsal siqnalların emalı **(Youngkyun, Shin)** |
| | İKT-yə giriş **(Seung Gol, Lee)** | Siqnalar və sistemlər **(Yeongkyo, Seo)** | Rəqəmsal sistemlərin layihələndirilməsi **(Yeongkyo, Seo)** |
| **Elektronika mühəndisliyi** | Yaradıcı düşüncə və problem həlli **(Deok Hwan, Kim)** | Rəqəmsal dövriyyələr **(SangBang, Choi)** | Rəqəmsal siqnalların emalı **(Youngkyun, Shin)** |
| | İKT-yə giriş **(Kwangsub, Yoon)** | Siqnallar və sistemlər **(Jaehak,Chung)** | Elektron dövrələri -II **(Kwangsub, Yoon)** |
| **Elektrik mühəndisliyi** | Yaradıcı düşüncə və problem həlli **(Paikkyun, Shin)** | Rəqəmsal dövriyyələr **(Jaehoon, Jun)** | Rəqəmsal siqnalların emalı **(Youngkyun, Shin)** |
| | İKT-yə giriş **(Paikkyun, Shin)** | Siqnallar və sistemlər **(Kwangki, Kim)** | Avtomatik idarəetmə **(Kwangki, Kim)** |
| **İnşaat mühəndisliyi** | Yaradıcı düşüncə və problem həlli **(Jasurbek Khodjaev)** | Ətraf mühit mühəndisliyi və laboratoriya **(Changkyu, Lee)** | Genişləndirilmiş struktur analizi **(Hyojoon An / Ju Hyun Park)** |
| | – | İlkin müşahidə və praktika **(Kwangbae, Kim)** | Hidrologiya **(Kyunghun Kim)** |
| İNHA Universitetindən BMU-ya yay məktəbində tədris etmək üçün səfər edən professor-müəllim heyətinin ümumi sayı | | 18 nəfər | |

Yay semestrində hər ixtisas fənni üzrə iki fənn, yalnız İnşaat mühəndisliyinin 1-ci kursları üçün 1 fənn olaraq keçirilir.

### 3.9. Kredit borcu olan tələbələrin tədris illəri üzrə dinamikası

İDP-də tədris illəri üzrə kredit borcu yaranmış tələbələrin toplam sayına görə dəyişən dinamika müşahidə olunmuşdur. Belə ki, 2020/2021-ci tədris ilinin payız semestrində kredit borcu olan tələbələrin toplam sayı - 0, yaz semestrində - 4, yay semestrində - 1, 2021/2022-ci tədris ilinin payız semestrində - 26, yaz semestrində - 26, yay semestrində - 18, 2022/2023-cü tədris ilinin payız semestrində 27, yaz semestrində 30, yay semestrində isə 2 nəfər olmuşdur.

**Şəkil 1.** Kredit borcu olan tələbələrin semestrlər üzrə dinamikası




**3.10. Kredit borcu yaranmış fənlərin ümumi həcminin semestrlər üzrə dinamikası**

Belə ki, 2020/2021-ci tədris ilinin payız semestrində kredit borcu yaranmış fənlərin toplam sayı - 0, yaz semestrində - 2, yay semestrində - 1, 2021/2022-ci tədris ilinin payız semestrində - 30, yaz semestrində - 23, yay semestrində - 8, 2022/2023-cü tədris ilinin payız semestrində 31, yaz semestrində 33, yay semestrində isə 4 fənn olmuşdur.

**Şəkil 3.** Kredit borcu yaranmış fənlərin semestrlər üzrə dinamikası



**Şəkil 4.** Cari semestrdə kredit borcu olan tələbələrin qəbul illəri üzrə göstəriciləri:




2020-ci il qəbulu İT ixtisası üzrə heç bir tələbənin akademik borcu yoxdur.




2021-ci il qəbulu İT ixtisası üzrə heç bir tələbənin akademik borcu yoxdur.




2022-ci il qəbulu Elektronika mühəndisliyi ixtisası üzrə heç bir tələbənin akademik borcu yoxdur.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 1000 sözü keçməməsi məqsədəuyğundur)

## 4. Təhsil proqramı üzrə tətbiq olunan tədris metodları və üsulları

### 4.1. Təlim nəticələrinin əldə olunmasını təmin edən innovativ, yaradıcı və interaktiv metod və texnologiyalardan istifadə vəziyyəti

Tədris prosesi təşkil olunarkən tələbələrin tədris proqramlarında nəzərdə tutulan təlim nəticələrinin əldə edilməsi diqqətə alınır. İxtisasın xarakterindən asılı olaraq bu prosesdə müxtəlif metodlardan (innovativ, yaradıcı və interaktiv) istifadə olunur. Bu zaman tələbələrin zehni və əmək fəalliğına, müstəqilliyinə əsaslanan, tədqiqatçılıq və əməkdaşlıq şəraiti yaradılır, onların məlumatlanmasını, idrak müstəqilliyini, fikri fəallığını, yaradıcılığını artıran üsullar istifadə olunur. Layihələrin verilməsilə tələbələrin yaradıcı təfəkkürü, tədqiqatçılıq qabilliyyətləri inkişaf etdirilir. Universitetin auditoriyalarında elektron lövhələrin və proyektorların olması, həmçinin laboratoriya imkanları (kompüter, mexanika, kimya, biologiya, fizika və s.) bu metodların tətbiqini asanlaşdırır. Tədris prosesində metodların tətbiqi kafedra iclaslarında və ya təşkil olunmuş seminarlarda müzakirə olunur və təkmilləşdirilir.

### 4.2. Tədris metodlarında problem yönümlü, problem yönümlü tədris, səriştə əsaslı tədris, nəzəriyyəyə və praktiki tətbiqə əsaslanan tədris yanaşmalarından istifadə vəziyyəti

Tədris prosesi zamanı tələbələrin elmi bilikləri müstəqil surətdə əldə etməsi, problem qoyub onun həlli yollarını tapması, bilikləri yaradıcı tətbiq etməsi diqqətə alınır. Tədrisin sadəcə elmi-nəzəri biliklər ilə deyil, onların əməli fəaliyyətdə tətbiqi də həyata keçirilir, nəzəri biliklər parktik işlər ilə möhkəmləndirilir. Tədris prosesində tələbənin əsasən mərkəzdə olması, onun fəal iştirakı təmin olunur. Tələbələrdə müstəqil işləmə bacarığı və məsuliyyət kimi

xüsusiyyətlər inkişaf etdirilir. Bu prosesdə məqsəd müəllimdən bilik və bacarıqların tələbəyə köçürülməsi deyil, tələbələrin davamlı özünüidarəetmə qabiliyyətini inkişaf etdirmək, analitik təhlil, sərbəst düşünmə, verilən məlumat və öz düşüncələri arasında əlaqələrin yaradılması, nəzəri bilikləri praktiki yollarla dərinləşdirmək və qazandığı bilik və bacarıqları gələcək peşə fəaliyyətlərində tətbiq etməkdir.

**4.3. Tədris metodlarının bütün təhsil formalarında tətbiqinin mümkünlüyü vəziyyəti**

BMU-da yalnız tədrisin əyani təhsilalma forması mövcuddur. Bu təhsilalma forması imkan verir ki, tədris prosesində əyani şəkildə tədris metodları tətbiq olunsun. Laboratoriya imkanları, auditoriyaların texniki vəziyyəti və professor-müəllim heyətinin peşəkarlıq səviyyəsi buna imkan verir.

**4.4. Tədris metodlarında daha çox dərindən öyrənmə, maraqlanma, motivasiya olunma və öhdəlik götürmə yanaşmalarının tətbiq edilməsi vəziyyəti**

Hər bir fənnin və müəllimin tədris metodu açıq dərslərin qiymətləndirilməsi zamanı kafedra iclaslarında (bəzən genişləndirilmiş formada) müzakirə olunur, tövsiyələr verilir. Mühəndislik ixtisaslarında tələbələrin uyğun müəssisələrə ekskursiyaları təşkil olunur. Universitetdə və uyğun müəssisələrdə seminar və təlimlər təşkil olunur. Məzunlar və ixtisas üzrə mütəxəssislər tələbələrlə görüşdürülür. Tələbələr tədris nəticələrinə görə müxtəlif üsullarla (təşəkkür, sertifikat, mükafat və s.) həvəsləndirilir, motivasiya olunur. Tədris prosesində hər bir mövzunun təqdimatında təkcə əsas aspektlər deyil, məzmunu zənginləşdirən kiçik məsələlər də izah edilir, tələbələrdə maraq oyatmaq məqsədilə hər hansı bir yanaşma nümunə kimi verilir, həll edilən məsələnin əhəmiyyətini açıqlamaqla onlarda müstəqil işləmək yolu ilə məsələləri həll etmə bacarığı formalaşdırılır.

**4.5. Tədris səviyyələrindən və tələbənin fərdi xüsusiyyətlərindən asılı olaraq uyğunlaşdırılmış tədris metodlarının və üsullarının tətbiqi vəziyyəti**

Tələbələrin fundamental nəzəri bilikləri mənimsəməsi ilə yanaşı, onların praktiki imkanlarını da gerçəkləşdirməsinə xüsusi diqqət yetirilir. Bunun üçün universitetin laboratoriya bazasından, tədris prosesinə cəlb olunan mütəxəssislərin potensialından rasional formada istifadə edilir. Amma bəzən müəllimlərin iş saatlarının artmasına, tələbələrin yorğunluğuna səbəb olur. Təhsilalanların ilkin fərdi potensialları, tədrisə və yeniliklərə meylləri nəzərə alınmaqla onlara verilən fərdi tapşırıqlar formalaşdırılır, onların arasında informasiya mübadiləsi, təcrübə bölüşdürülməsi təşkil etməklə bir növ yarış atmosferi yaradılır və hər bir fərdin uğur qazanmasına imkan yaradılır.

**4.6. Tədris prosesinin aktiv öyrənməni təşviq edən texnoloji imkanlar və yanaşmalarla zənginləşdirilməsi vəziyyəti**

Aktiv öyrənmə maddi texniki bazanın texniki səviyyəsindən, təhsil verənlərin potensialından və təhsil alanların öyrənmə həvəsindən, məsuliyyətindən asılıdır. Universitetin maddi texniki bazasının yenilənməsi mövcud olan maliyə potensialı və ondan sərbəst istifadə imkanlarına bağlıdır. Tədris prosesində istifadə olunan texnoloji vasitələrin və proqram təminatının müasir tələblərə uyğun təşkili daim nəzarətdədir. Tədris olunan fənlərlə bağlı materiallar və ədəbiyyatlar google classroom vasitəsi ilə tələbələrə çatdırılır, eyni zamanda tələbələrdə

hazırladıqları tapşırıqları bu platforma vasitəsi ilə fənn müəllimlərinə ötürə bilirlər. Universitetdə mövcud olan laboratoriyalar (kimya, fizika, mexanika, kompüter laboratoriyaları) yeni avadanlıqla təmin edilmiş, yeni laboratoriyalar (avtomatika, elektronika, elektrotexnika, kompüter laboratoriyaları və s.) qurulmuşdur. Həmçinin mühəndislikdə müasir tətbiqi proqramlardan (məs. SCADA, KissSoft, Sap2000, ArchCAD, AnsysWorkbench, StaadPro, XSteel, Eviews və s.) tədris prosesində istifadə olunur. Fənlərinn tədris keyfiyyətinin qiymətləndirilməsində auditoriya ilə interaktivlik əsas tələb kimi irəli sürülür, təhsilalanları dərs vaxtı dialoqa cəlb etmək yolu ilə hər bir tələbənin tədris prosesinin tam hüquqlu iştirakçı olmasına şərait yaradılır.

**4.7. Yeni təlim və tədris metodlarının və interaktiv öyrənməni təşviq etmə vəziyyəti**

Yeni təlim nəticələrinin əldə olunmasını təmin edən innovativ, yaradıcı və interaktiv metod və texnologiyalardan istifadə edilir. Belə ki, mühazirələr Microsoft PowerPoint proqram təminatında elektron təqdimat formasında tədris olunur. Elektron təqdimatlar formasında hazırlanmış mühazirə dərsləri, müasir avtomatlaşdırılmış layihələndirmə üsulları, proqramlaşdırma və avtomatlaşdırmaya dair məşğələ dərsləri interaktiv lövhələrlə təmin olunmuş, müvafiq proqram paketləri yüklənilmiş kompüter siniflərində, tətbiqi məşğələ dərsləri isə xüsusi avadanlıqlarla təchiz olunmuş laboratoriya otaqlarında tədris olunur. Elektrik maşınları, müxtəlif ixtisaslar üzrə Fizika, Elektrik və elektronika, Avtomatlaşdırma üzrə dərslər xüsusiləşdirilmiş auditoriyalarda həyata keçirilir. Bəzi praktik dərslərin "Azercell Telecom" MMC şirkətində keçirilməsi təşkil edilir. Bundan başqa BMU-da bütün fənlərin mühazirə dərsləri elektron təqdimat formasında tədris olunur, bir sıra fənlərin tədrisində isə Matlab, ETAP və Digsilent PowerFactory proqram komplekslərinin bazasında virtual laboratoriyalardan istifadə olunur. Yeni təlim və tədris metodlarının və interaktiv öyrənmənin tətbiq olunması təşviq edilir və bununla bağlı bir sıra müvafiq tapşırıqlar verilmişdir.

**4.8. Tədris metod və üsullarının dövrü monitorinqi, preventiv tədbirlərin sistematik qiymətləndirilməsi və təkmilləşdirilməsi vəziyyəti**

Tədris metodlarından tələbəyönümlü, problem yönümlü tədris, səriştə əsaslı tədris, nəzəriyyəyə və praktiki tətbiqə əsaslanan tədris yanaşmalarından istifadə edilir. Belə ki, təhsilalanların fərdi tapşırıqları, buraxılış işlərinin və magistr dissertasiyalarının mövzuları əsasən müvafiq istehsalat sahələrindən götürülür və tətbiqi üzrə təkliflər verilir. Tədris prosesində ixtisas fənlərinin bəzi mövzuları xüsusi proqram təminatının əsasında nəzəri biliklərə və praktiki tətbiqə əsaslanan tədris yanaşmalarından istifadə etməklə tədris olunur. Tədris prosesində dərindən öyrənmə, maraqlanma, motivasiya olunma və öhdəlik götürmə yanaşmaları kimi tədris metodlarına üstünlük verilir. BMU-da tədris metod və üsullarının dövrü monitorinqi və preventiv tədbirlərin sistematik qiymətləndirilməsi və təkmilləşdirilməsi işləri görülür. Bunun üçün sorğular keçirilir və sorğuların nəticələri təhlil olunur.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 1000 sözü keçməməsi məqsədəuyğundur)

## 5. Tədris proqramı üzrə istifadə olunan təlim və tədris resursları

**5.1. ATM-də öyrənmə və tədris ehtiyaclarını tam ödəyə bilən, istifadəyönümlü, sinxron və asinxron öyrənmə, həmçinin ölçü və qiymətləndirmə imkanlarına malik olan təlim və tədrisin elektron idarəetmə sisteminin mövcudluğu vəziyyəti**

BMU-da elektron rejimdə işləyən, internet, intranet (lokal şəbəkə) və veb texnologiyalar infrastrukturuna əsaslanan, müxtəlif struktur bölmələr tərəfindən daxil edilən məlumatları əhatə edən və mərkəzləşdirən "AZUMİS" Azərbaycan Universitet Məlumat İdarəetmə Sistemi adı altında Ədliyyə Nazirliyində qeydiyyata alınmış Elektron Məlumat Sistemi (EMS) mövcuddur. Dərs yüklərinin müəyyənləşdirilməsi, tələbələrin dərs qeydiyyatı, elektron jurnalın doldurulması, qiymətlərin daxil edilməsi, təqaüdlərin hesablanması üçün lazım olan məlumatların əldə edilməsi, tələbələrin təhsil haqlarının hesablanması, müxtəlif hesabatların əldə edilməsi və digər proseslər EMS-də həyata keçirilir. EMS-də müxtəlif struktur bölmələrin idarəetmə modulları, müəllim və əməkdaşların şəxsi kabinetləri (https://pms.beu.edu.az), tələbələrin şəxsi kabinetləri (https://my.beu.edu.az) mövcuddur. Tələbələr dərsə davamiyyət, qiymətləndirmələrin nəticələri, təhsil sahəsində qanunvericiliklər, universitetə daxil olma barədə turniket qeydləri, elanlar, dərs cədvəli, təhsil haqqı borcu və ödənişləri barədə məlumatları şəxsi kabinetlərindən əldə edirlər. Eyni zamanda tələbələr dərs qeydiyyatı (FTP-nin elektron tərtib edilməsi), təkrar imtahanlarda iştirak üçün müraciət, sənəd sifarişi, sorğu anketlərində iştirak, kitab sifarişi və s. əməliyyatları şəxsi kabinetləri vasitəsi ilə icra edirlər. Müəllim və əməkdaşların səlahiyyətləri üzrə şəxsi kabinetlərindən elektron jurnal, qiymət daxil etmə, dərs cədvəli, tələbə məlumatları, hesabatlar, ixtisasların tədris planları, fənn məlumatları, kitabxana və s. altmodullara daxil olmaq imkanları mövcuddur.

**5.2. ATM-də müasir təlim prosesini aparmaq üçün texnika (proyektorlar, kompüter, ağıllı lövhələr və s) ilə tam təchiz olunmuş auditoriyaların mövcudluğu vəziyyəti**

Bakı Mühəndislik Universitetinin 154 tədris auditoriyası mövcuddur ki, onların 120-si mühazirə auditoriyasını, 24-ü laboratoriya otaqlarını, 10-u isə seminar və iclas zallarını əhatə edir.

24 laboratoriya otağının 15-i kompüter laboratoriyalarını, 9-u isə digər tədris laboratoriyalarını əhatə edir. Auditoriyaların texniki təchizat vəziyyətini aşağıdakı cədvəldən də görmək olar.

Cədvəl 1 : Auditoriyalar və onların texniki təchizat vəziyyəti

| Otağın növü / Avadanlıqlar | Tədris auditoriyalarında mövcud olan say | | Laboratoriyalarda mövcud olan say | | Digər tədris laboratoriyaları | | İclas və seminar zallarında mövcud olan say | | Kitabxana və oxu zallarında mövcud olan say | | ÜMUMİ CƏM | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | CƏMİ | | CƏMİ | | CƏMİ | | CƏMİ | | CƏMİ | | |
| Sinevizyon tipli proyektor | 38 | 87 | 12 | 14 | 5 | 6 | 7 | 9 | 0 | 0 | 116 | |
| İnteraktiv lövhənin proyektoru | 49 | | 2 | | 1 | | 2 | | 0 | | | |
| İnteraktiv lövhə | 83 | | 5 | | 1 | | 3 | | 0 | | 92 | |
| Kompüter | 0 | 80 | 358 | 363 | 48 | 53 | 4 | 7 | 12 | 12 | 422 | 515 |
| İnteraktiv lövhənin kompüteri | 80 | | 5 | | 5 | | 3 | | 0 | | 93 | |
| Otağın növünə görə proyektor cəmi | 87 | | 14 | | 6 | | 9 | | 0 | | 116 | |
| İnternetə çıxışı olan kompüterlərin sayı | 80 | | 363 | | 53 | | 7 | | 12 | | 515 | |
| İnternetə çıxışı olan auditoriyaların sayı | 118 | | 17 | | 16 | | 10 | | 0 | | 161 | |

## 5.3. Tələbənin təlim prosesində iştirakını/aktivliyini qeydə alan tam funksional elektron tədris platformasının və jurnalın mövcudluğu vəziyyəti

Müəllimlər şəxsi kabinetlərindən tədris etdikləri fənlər üzrə tələbələrin dərslərdə iştirakı barədə məlumatları və aldıqları qiymətləri EMS-ə daxil edirlər. Daxil edilən məlumatlar sinxron olaraq həm də tələbənin şəxsi kabinetində görünür. 25 faizdən çox dərsdə iştirak etməyən tələbələrin fənn üzrə imtahana buraxılmaması prosesi də elektron jurnal vasitəsi ilə həyata keçirilir.

## 5.4. Tədris prosesi ilə bağlı rəqəmsal xidmətlərin və texniki təminatın təhsil proqramlarına uyğunluğu

Tədrisin təşkili prosesində EMS-dən, Google Classroom-dan istifadə olunur. Auditoriyalar texnika (kompüter, proyektor, ağıllı lövhələr və s.) ilə təchiz olunmuşdur. Təhsil proqramına və fənnin xüsusiyyətinə uyğun olaraq qeyd olunan vasitələrdən istifadə etməklə tədris təşkil olunur.

## 5.5. İnternetə qoşulmuş kompüterlərin və kompüter laboratoriyalarının mövcudluğu vəziyyəti

İnternetə çıxışı olan auditoriya və laboratoriya otaqlarının ümumi sayı 154-dür. Oxu zallarında tələbələrin istifadəsi üçün nəzərdə tutulan kompüterlərin sayı 18 ədəddir. Kompüter laboratoriyalarında, eləcə də tədris auditoriyalarında mövcud olan kompüterlərin hər biri qlobal internet şəbəkəsi ilə təmin edilmişdir.

**5.6 Kitabxananın eyni zamanda (elektron və bilavasitə) müəssisənin tələbə və akademik heyətinin sayına nisbətdə xidmət imkanlarının artım dinamikası**

Bakı Mühəndislik Universitetində kitabxana həm əyani, həm də elektron şəkildə fəaliyyət göstərir. BMU-nun kitabxana fondunda hazırda 106 minə yaxın kitab və jurnal mövcuddur. Kitabxana onlayn sistem əsasında fəaliyyət göstərir. Tələbələr və müəllimlər kitabları onlayn sifariş verməklə əldə edirlər. Sifarişlər maksimum 15 dəqiqə ərzində hazır olur. Sifarişin qüvvədə olma müddəti 24 saatdır. 2022-ci ildə İkili diplom proqramı tərəfindən universitetə Elektrik mühəndisliyi və Elektronika mühəndisliyi ixtisasları üçün nəzərdə tutulan 11 ədəd kitab alınmışdır (https://bit.ly/3nwjrFj). 2023-cü ildə isə İnşaat mühəndisliyi ixtisasında təhsil alan tələbələr üçün 38 ədəd kitab alınaraq kitabxanaya təhvil verilmişdir (https://bit.ly/48ZxSVo). Bundan əlavə İNHA Universiteti tərəfindən 30 ədəd kitab BMU-nun kitabxanasına ianə edilmişdir.

BMU professor-müəllim heyəti və tələbələrinin innovativ xidmətlərdən, elektron resurslardan istifadəsi, müxtəlif nüfuzlu beynəlxalq bazalara giriş imkanlarının daha da genişləndirilməsi istiqamətində növbəti addım BMU ilə Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rəhbərliyi arasında UNEC-in elektron kitabxanasından birgə istifadə üçün razılaşma əldə olunmasıdır. Razılaşmaya əsasən, BMU-nun müəllim və təhsilalanlarına UNEC Kitabxana-İnformasiya Mərkəzinin (7/24) elektron kitabxanasından (https://library.unec.edu.az/) sərbəst istifadə etmək hüququ verilib. Bu, eyni zamanda, BMU-nun əməkdaş və tələbələrinin rəqəmsal xidmətlərə əlçatanlığının təmin edilməsinə, daha geniş elektron resurslara çıxış imkanlarının, effektiv istifadə bacarıqlarının artırılmasına əlavə töhfə verəcək: https://bit.ly/3R99zw6

**5.7. Tədris dillərinə uyğun kitab fondunun mövcudluğu və artım dinamikası**

BMU-nun saytındakı (https://tms.beu.edu.az, https://pms.beu.edu.az) Tələbə Məlumat Sistemi və Personal Məlumat Sisteminə daxil olduqdan sonra kitab üçün daha əlçatan və onlayn formada sifarişlər vermək mümkündür. Sistemdə oxucunun axtardığı kitabın bütün detalları qeyd olunur. Kitabın rəfdə və ya əldə olması haqqında məlumat da oxucunun diqqətinə çatdırılır. Əgər hansısa kitab sifariş olunubsa, dərhal növbəyə durmaq təklifi bildirilir. Sifarişlər maksimum 15 dəqiqə ərzində hazır olur. Bu kitabların əksəriyyəti ingilis və türk dillərindədir. Bununla yanaşı, alman, ərəb, rus, koreya və s. dillərdə olan kitablar da var. Fakültələrdə tədris olunan fənləri əhatə edən kitabxana fondunda bütün kitabların PDF forması mövcuddur. BMU-nun kitabxanası, eyni zamanda məşhur Web of Science və EBSCO host kimi elektron portalların üzvüdür. Son beş ildə əsasən BP şirkətinin tərcümə edərək universitetlərə hədiyyə etdiyi dərsliklər olmaqla kitabxana fondu xüsusilə xarici dərsliklərlə zənginləşmişdir. BP şirkətinin Azərbaycan dilinə tərcümə etdiyi bir çox kitab layihəsində universitetimizin əməkdaşları da rol almışdır. Bakı Mühəndislik Universitetinin (BMU) kitabxana fondunun zənginləşdirilməsi və ən müasir dərs vəsaitləri ilə təmin edilməsi üzrə işlər davam etdirilir. Bu istiqamətdə növbəti addım BMU və Koreya Respublikasının İNHA Universiteti arasında icra olunan beynəlxalq ikili diplom proqramı çərçivəsində Dövlət Neft Fondunun ayırdığı vəsait hesabına atılıb. Eyni zamanda BMU-da Təhsil Nazirliyinin qrantı hesabına Elektrik mühəndisliyi və Elektronika mühəndisliyi ixtisası tədris materiallarının gücləndirilməsi layihəsi çərçivəsində də kitabxanaya 20-yə yaxın xarici dərslik alınmışdır.

Kitabxana fonduna daxil olan kitab sayı 2019-cu ildən etibarən hər il əvvəlki illə görə 10-20 faiz həcmində artmışdır.

**5.8. ATM-də dərsliklərin, elmi ədəbiyyatların və elmi bazalardan istifadə üçün ayırılan vəsaitin həcmində artım dinamikası**

Elmi ədəbiyyat alınmasına, Elmi Tədqiqat və Statistik İnnovasiyalar Mərkəzindən, həmçinin Thomson açıq kitabxana şəbəkəsindən istifadə imkanı əldə etmək üçün və digər müvafiq istiqamətlərə illər üzrə aşağıdakı məbləğlərdə vəsait ayrılmışdır.

- 2018-ci ildə 23792,01 manat,
- 2019-cu ildə 14862,20 manat,
- 2020-ci ildə 7440,00 manat,
- 2021-ci ildə 93510,00 manat,
- 2022-ci il 74760,00 manat.

Eyni zamanda, 2024-cü ildə Açıq kitabxana şəbəkəsi Thomson üçün 42800 manat və BMU-İNHA İDP çərçivəsində 23.800 AZN dəyərində kitabların alınması nəzərdə tutulub.

**5.9. Təlim və tədris resurslarının istifadəsinin və yenilənməsinin monitorinqi vəziyyəti**

BMU-da tədris prosesinin təşkiliylə əlaqədar olaraq 5 tədris korpusu fəaliyyət göstərir. Həmçinin akt zalları, yeməkxanalar, yataqxanalar, tədris kabinetləri, emalatxanalar və tibbi xidmət məntəqəsi fəaliyyət göstərir. Tədrisin müasir üsullarla təşkili üçün auditoiyaların əksəriyyəti proyektorlarla, ağıllı lövhələrlə və digər lazımi avadanlıqlarla təchiz olunub. BMU-da tədris laboratoriyaları müasir avadanlıqlarla təchiz olunmuşdur. Belə ki, tələbə kontingentinin sayının artması yeni-yeni rəqəmsal laboratoriyaların yaranmasına və bu laboratoriyaların yeni avadanlıqlarla təchiz olunmasını tələb edir. Laboratoriya bazalarının yenilənməsində və ya zənginləşdirilməsində universitet öz vəsaiti və tərəfdaş şirkət və müəssisələrin maliyyə dəstəyindən istifadə edir. Tərəfdaşımız BP şirkətinin maliyə dəstəyi ilə Kimya mühəndisliyi və Mexanika mühəndisliyi kafedralarında ən müasir avadanlıqlarla təchiz olunmuş yeni laboratoriya qurularaq müəllim və tələbələrin ixtiyarına verilmişdir. Universitetdə kompyuter laboratoriyaları mövcuddur. Kompüterlər internet şəbəkəsinə qoşulmuşdur.

BMU-da Tələbə Məlumat və Personal Elektron sistemi fəaliyyət göstərir. Universitetdə Elektron Kitabxana fəaliyyət göstərir. Universitetin elektron poçt ünvanı və internetdə veb-səhifəsi mövcuddur. Bu baxımdan BMU-da təlim və tədris resurslarından istifadənin və yenilənmənin ümumi vəziyyəti qənaətbəxşdir.

**5.10. Təlim və tədris resurslarının keyfiyyət və kəmiyyət baxımından uyğunluğu və təhsilalanlar üçün əlçatanlığı vəziyyəti**

Təhsil sistemində, o cümlədən, ali məktəblərdə geniş dünya görüşünə malik, təşəbbüsləri, yenilikləri qiymətləndirməyi bacaran, nəzəri-praktik biliklərə yiyələnən, müasir təfəkkürlü, rəqabətqabiliyyətli kadrların hazırlanması təhsilin keyfiyyətinin yüksəldilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Qeyd olunan məsələlər diqqətə alınaraq, BMU-da təhsilin məzmununun, təlim prosesinin keyfiyyət və kəmiyyət baxımından yüksəldilməsi üçün elm və

texnologiyadakı yeniliklərə uyğunlaşdırılması və bunun təhsilalanlar üçün əlçatanlığı əsas götürülməkdədir. Tədris prosesində istifadə olunan resurslar Google platformasındakı "Google classroom"larında yerləşdirilərək təhsilalanlar üçün əlçatanlığı təmin edilmişdir.

**5.11. Tələbə klublarınn, tələbələrin sosial, mədəni və idman fəaliyyətləri üçün resursların (inzibati və büdcə resrursları), dəstək planlarının mövcudluğu**

Universitetdə 3 mindən çox tələbənin üzv olduğu 49 tələbə klubu fəaliyyət göstərir. Hazırda bu klublar tələbələrin elmi, tədris və sosial fəaliyyətlərinin dəstəklənməsi, koordinasiya olunması istiqamətində müxtəlif tədbirlər (seminarlar, intellektual yarışmalar, sərgilər, görüşlər, təlimlər, kurslar və s.) həyata keçirirlər. Universitet rəhbərliyi tərəfindən bu tədbirlərin təşkili üçün lazımi köməklik göstərilir.

BMU-İNHA İDP çərçivəsində isə klub yaradılmışdır. BMU-İNHA İDP klubu proqram çərçivəsində təhsil alan tələbələrin dərsdənkənar məşğuliyyət növlərində aktiv iştiraklarını təmin etmək məqsədi daşıyır. Tələbələrimiz klub vasitəsilə daha çox Hackathon, Brain ring, maarifləndirici təlimlər və s. kimi fəaliyyət növlərində aktiv iştirak edirlər.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 1000 sözü keçməməsi məqsədəuyğundur)

## 6. Tədris proqramı üzrə tələb olunan təhsil infrastrukturu və maddi-texniki baza

**6.1 Təhsil Proqramı üzrə tədris otaqlarının dövlət standartlarına uyğunluğu vəziyyəti**

BMU-İNHA İDP-nin tərəfdaş ATM-i Bakı Mühəndislik Universiteti olduğunu nəzərə alaraq, universitetin maddi-texniki bazasından istifadə olunur. Bununla əlaqədar, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Kollegiyasının Q-17 nömrəli 16 iyul 2013-cü il tarixli Qərarı ilə təsdiq edilmiş "Aktivlərin və öhdəliklərin inventarizasiyası Qaydaları"na uyğun olaraq BMU aktivlərin və öhdəliklərin inventarizasiyası həyata keçirilir. Mövcud qaydalara uyğun olaraq müəyyənləşdirilmiş tələblər və müddətlər nəzərə alınaraq rəsmiləşdirilməklə inventarizasiyanın həyata keçirilməsi ilə bağlı tədbirlər görülür. İnventarizasiyanın yekun nəticəsi barədə cari ilin sonunadək Elm və Təhsil Nazirliyinə məlumat verilir. Universitetin maddi-texniki bazası mütəmadi araşdırılır və tədris prosesinə uyğun təkmilləşdirilir.

BMU-nun maliyyə təminatı əsasən tələbələrin təhsil haqqı hesabına formalaşır. Daxil olmuş gəlirlər universitetin maddi-texniki bazasının, infrastrukturunun gücləndirilməsinə və kadr potensialının inkişafına sərf olunur. Son 5 ildə 1 tədris korpusunun tikilib istifadəyə verilməsi və 10-a yaxın laboratoriyaların qurulması universitetin infrastrukturunun və maddi-texniki bazasının yüksəlməsinə səbəb olmuşdur.

**6.2 Təhsil proqramı üzrə ədəbiyyat və digər təlim resurslarının mövcudluğu vəziyyəti**

BMU-İNHA İDP çərçivəsində təhsil alan tələbələrin universitetin kitabxana resurslarından istifadəsi üçün imkanlar yaradılıb. Belə ki, proqram çərçivəsində elektrik, elektronika və inşaat mühəndisliyi üzrə 170 adda kitab və elmi ədəbiyyat universitetin kitabxanasına Dövlət Neft

Fondunun ayırdığı vəsait hesabına alınaraq təhvil verilib. Bundan əlavə, tələbələrin istifadəsi üçün hər bir laboratoriyada internetlə təchiz olunmuş 300-ə yaxın komputer mövcuddur. Hər bir komputer 125 mbit\san internet sürəti ilə internet şəbəkəsinə qoşulmuşdur. BMU-İNHA İDP çərçivəsində tədris olunan fənlər zamanı istifadə olunan auditoriyaların hər biri proyektorla təmin olunub. Əlavə olaraq, 15 tədris auditoriyasında ağıllı lövhə quraşdırılmışdır.

**6.3 Təhsil proqramı üzrə təlim və tədris bazasının mövcudluğu vəziyyəti**

BMU-İNHA İDP çərçivəsində 4 ixtisas üzrə - 'İnformasiya texnologiyaları', 'Elektrik mühəndisliyi', 'Elektronika mühəndisliyi' və 'İnşaat mühəndisliyi' - kadr hazırlığı aparılır. Bu məqsədlə, BMU-nun 5 tədris binasında olan auditoriya və məşğələ otaqları istifadə olunur. Bundan əlavə, universitetin qız və oğlan yataqxanaları, idman zalı və yeməkxanası BMU-İNHA İDP tələbələrinin istifadəsinə verilmişdir. BMU-İNHA İDP inzibati heyəti ümumi sahəsi 34.79 kv.m olmaqla BMU-nun 'İqtisadiyyat və İdarəetmə' inzibati binasında iki otaqdan istifadə edir.

**6.4 Təhsil proqramı üzrə tədris laboratiyalarının mövcudluğu vəziyyəti**

BMU-İNHA İDP çərçivəsində tədris prosesi zamanı əsasən Kompüter və İnformasiya Texnologiyaları kafedrasının və Avtomatika, Telekommunikasiya və Energetika kafedralarının nəzdində olan tədris laboratoriyalarından istifadə olunur. Belə ki, tədris zamanı dərslərin məşğələ hissəsinin tədrisi üçün Kompüter və İnformasiya Texnologiyaları kafedrasının nəzdində olan 5 kompüter laboratoriya otağından, Fizika kafedrasının bir laboratoriya otağından və Telekommunikasiya və Energetika kafedrasının isə 2 laboratoriya otağından istifadə olunur. Bundan əlavə, BMU-İNHA İDP-nin və İnşaat mühəndisliyi kafedrasının sorğusu əsasında BMU-ya 4 adda (Total station, Automatic level, Staff, Eslon tape) inşaat sahəsində istifadə üçün avadanlıq alınmışdır. Həmin avadanlıqlardan BMU-İNHA İDP-də 'İnşaat mühəndisliyi' ixtisası üzrə dərslərin tədrisi zamanı istifadəsi nəzərdə tutulmuşdur.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 1000 sözü keçməməsi məqsədəuyğundur)

## 7. Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi

**7.1 Bilik və bacarıqların qiymətləndirilməsi sistemi ilə bağlı prosedur və qaydaların mövcudluğu vəziyyəti**

Bilik və bacarıqların qiymətləndirilməsi sistemi ilə bağlı BMU-İNHA İDP üzrə cari və aralıq qiymətləndirmə metodları nəzərdə tutulub. Cari qiymətləndirməyə semestr daxilində keçirilən SDF-lərdə əldə edilən qiymətlər, həmçinin tələbənin sərbəst işindən (o cümlədən kurs işi və layihəsindən) aldığı qiymətlər daxildir. Aralıq qiymətləndirmə isə semestr sonu imtahanların nəticəsində formalaşır.

Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi Elm və Təhsil Nazirliyinin 11.09.2008-ci il tarixli, 1060a nömrəli əmri ilə təsdiq olunmuş "Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında" Əsasnaməyə əsasən yerinə yetirilir. 100 ballıq system ilə toplanmış balların müvafiq normalar üzə bölgüsündən tələbənin biliyi

hərflərlə (A (əla), B (çox yaxşı), C (yaxşı), D (kafi), E (qənaətbəxş), F (qeyri-kafi)) qiymətləndirilir. Qiymətləndirmə birbaşa elektron sistemə daxil edilir. Tələbələrin (hətta məzunların da) hər bir fənn üzrə müvəffəqiyyətinin nəticəsi elektron bazada saxlanılır və asanlıqla əldə edilə bilər.

**7.2 Qiymətləndirmə meyarlarının ölçüləbilən və etibarlı olması vəziyyəti**

Ümumi qiymətləndirmə mərhələli şəkildə formalaşır, hər bir mərhələ 100 ballıq şkala üzrə qiymətləndirilir və ölçülə bilən çəki əmsalına malikdir: a) davamiyyət – 0,1; b) semestr daxili fəaliyyət – 0,3; c) tələbənin sərbəst işi – 0,1; d) imtahan – 0,5.

İmtahanlar əsasən yazılı formada keçirilir, imtahan biletlərinə 5 sual salınır və hər biri 20 balla qiymətləndirilir. Tələbənin hər bir sual üzrə ölçüləbilən və etibarlı qiymətləndirilməsi üçün sualların geniş şəkildə, balın formalaşması üçün qiymətləndirmə meyarlarını əks etdirməklə tərtib olunması tövsiyə edilir. Tələbələrin kurs işi, layihəsi, referat, seminar və digər sərbəst işlər üzrə biliyinin qiymətləndirilməsi üçün dəqiq meyarlar vardır.

**7.3 Qiymətləndirmədə müxtəlif formalarından (üz-üzə, məsafədən, qarışıq, açıq və s.) metod və vasitələrdən istifadə olunması vəziyyəti**

Bir qayda olaraq, imtahanlar yazılı şəkildə aparıldığına görə müəllim-tələbə təmasları olmur və qiymətləndirmə anonim şəkildə yazılı cavabların yoxlanılması ilə başa çatır. Məşğələ və seminarlarda qiymətləndirmə üz-üzə qaydada həyata keçirilir.

Pandemiya dövründə, tədrisin onlayn formada təşkili zamanı qiymətləndirmə prosesi məsafədən aparılmışdır. Bunun üçün elektron sistemdə xüsusi "İmtahan" modulu işlənilmiş və istifadə edilmişdir.

**7.4 Qiymətləndirmədə ədalətliliyin, obyektivliyin, şəffaflığın təmin olunması və qiymətin əsaslandırılması vəziyyəti**

Azərbaycan Respublikası Elm və Təhsil nazirinin 1060 saylı, 11.09.2008-ci il tarixli əmri ilə təsdiq olunmuş "Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında əsasnamə" dəki meyarlar diqqətə alınaraq hər bir təhsilalanın biliyi obyektiv qaydada qiymətləndirilir. İmtahan nəticələri ilə razılaşmayan hər bir tələbənin apellyasiya komissiyasına müraciət etmə hüququ vardır. Apellyasiya komissiyasında təhsilalanların iddiaları fənni tədris edən müəlimin və tələbinin iştirakı yenidən baxılıb qiymətləndirilir.

**7.5 Qiymətləndirmədə təhsilalanların özünüqiymətləndirmə bacarığının formalaşması, sərbəst öyrənmə istəyinin yaradılması və təlimin keyfiyyətinin yüksəldilməsinə nail olunması amillərinin nəzərə alınması vəziyyəti**

Təhsilalanların biliyinin qiymətləndirilməsində onların sərbəst işlərinin, o cümlədən, müəyyən fənlər üzrə seçilmiş mövzuların qrup və ya fərdi qaydada hazırlayıb təqdim etmələrinin xüsusi əhəmiyyəti vardır. Tələbə fənni tədris edən müəllim ilə sərbəst iş mövzusunu seçir və semestrin sonuna qədər onu hazırlayıb təqdim edir. Bu da tələbələrin tədris olunan fənləri daha yaxşı mənimsənilməsinə və onların fərdi inkişafına müsbət təsir edir.

**7.6 Qiymətləndirmədə informasiya kommunikasiya texnologiyalarının nailiyyətlərindən istifadə vəziyyəti**

BMU-da təhsil alan hər bir tələbəyə Google domainli korporativ email (……….@std.beu.edu.az) ünvanı verilir. Tədris və qiymətləndirmə effektivliyini artırmaq üçün informasiya kommunikasiya texnologiyalarından istifadə edilir. Bunun üçün Google Classroom platformasında hər bir fənn üçün rəqəmsal siniflər formalaşdırılır. Tələbələr sərbəst işləri və semestr daxili fəaliyyət üzrə hazırladıqları tapşırıqları internet üzərindən oraya daxil edir, fənn müəllimi də orada qiymətləndirə bilər. Bu halda qiymətləndirmənin nəticəsi avtomatik olaraq tələbəyə göndərilir. İxtisasın xüsusiyyətindən asılı olaraq bəzi fənnlər üzrə biliklərin qiymətləndirilməsində müvafiq proqramlar istifadə olunur.

Semestr sonu imtahanlarda tələbələrin cavab kağızlarının kodlaşdırılması da elektron sistem vasitəsi ilə aparılır. Həmin kodlara görə tələbələrin imtahan nəticələri elektron sistemə daxil edilir, cari və aralıq qiymətləndirmə nəticələri əsasında yekun bal elektron bazada avtomatik hesablanır.

Tələbə imatahan nəticələri ilə bağlı bütün məlumatları universitetin elektron məlumat sistemindəki şəxsi kabinetindən əldə edir.

**7.7 Cari və aralıq qiymətləndirmələrin müvafiq fənlərin spesifikliyi nəzərə alınaraq şəffaflıq, ədalətlilik və rəqabətlilik prinsipləri əsasında təşkil olunması vəziyyəti**

BMU-da cari qiymətləndirmə, yəni fənnlər üzrə tələbənin semestr müddətində fəaliyyətinin qiymətləndirilməsi qaydalara görə 3 (üç) dəfə (pandemiya dövründən etibarən müvəqqəti olaraq 2 dəfə) keçirilməsi nəzərdə tutulan aralıq imtahanlarında (SDF-semester daxili fəaliyyət), tələbənin sərbəst işindən (FF- fərdi fəaliyyət) və davamiyyət nəticəsindən ibarətdir. SDF-lər əsasən fənlərin spesifikliyi nəzərə alınaraq yazılı və ya test tapşırıqları formasında keçirilir. Tələbənin sərbəst işinin mövzusu müəllim tərəfindən, sillabusdakı mövzulara uyğun tərtib edilir, bu zaman tələbənin istəyi də nəzərə alınır. Onların nəticəsi tələbələrin fərdi və ya qrup şəklində təqdimatları əsasında qiymətləndirilir.

BMU-İNHA İDP-də aralıq qiymətləndirmə, yəni fənlər üzrə tələbənin imtahan zamanı bilik və bacarıqlarının qiymətləndirilməsi ildə 3 dəfə olmaqla qış, yaz və yay imtahan sessiyası müddətində aparılır. İmtahanlar əsasən yazılı formada, bəzi fənlər üzrə test formasında təşkil olunur. Yazılı imtahanlar əvvəlcədən müəllimlər tərəfindən hazırlanmış sualların səviyyəsinə görə dörd ekvivalent variantlar formasında təqdim olunur ki, buda imtahanların rəqabətlilik prinsipi əsasında təşkil olmasına xidmət edir. İmtahanlarda köçürmə halları aşkar edildiyi zaman akt tərtib olunur, tələbə imtahandan kənarlaşdırılır və imtahan nəticəsi "0" qiymətləndirilir. İmtahan nəticələri imtahan keçirilən gün fənn müəllimi tərəfindən yoxlanılıb EMS-yə daxil edilir. Tələbələr daxil edilən qiymətləri şəxsi kabinetlərində görürlər. Tələbələrin apellyasiya müraciətləri operativ şəkildə araşdırılıb cavablandırılır. İmtahanların nəticələri fakültə və universitet Elmi şuralarında müzakirə edilir.

BMU-da müvafiq fənlərin spesifikliyi nəzərə alınaraq, cari və aralıq qiymətləndirmələrin şəffaflıq, ədalətlilik və rəqabətlilik prinsipləri əsasında təşkil olunması vəziyyətini tələbələrlə aparılmış sorğular əsasında qənaətbəxş hesab etmək olar.

**7.8 Bilik və bacarıqların qiymətləndirilməsi sistemi üzrə təhlillərin aparılması, proseslərin izlənilməsi və təkmilləşdirilməsi vəziyyəti**

Təhsilalanların biliyinin qiymətləndirilməsi üç mərhələdə aparılır: cari, aralıq və yekun. Cari qiymətləndirmə tələbələrin dərsə davamiyyəti və semestr ərzində tədris fəaliyyətinə görə həyata keçirilir. Cari qiymətləndirmə sərbəst işlərin, laboratoriya işlərinin, kurs işi və kurs layihələrinin təhvil verilməsi ilə bərabər semestr ərzində iki və ya üç dəfə kollokvium (SDF) keçirilməsi ilə aparılır. İmtahanlar mərkəzləşdirilmiş formada test, yazılı və xüsusui qabiliyyət tələb edən fənnlər üçün yaradıcılıq formasında aparılır. Yazı işləri şifrələndikdən sonra xüsusi ayrılmış otaqlarda yoxlanma prosesi həyata keçirilir.

Hər imtahan sessiyasından öncə rektorun əmri ilə sessiyanın keçirilməsinə dair əmr imzalanır. Sessiyanın keçirilməsi üçün imtahan komissiyası, imtahan qərargahı, münaqişə komissiyası, nəzarət və s. bölmələr fəaliyyət göstərir. İmtahanlar test, yazılı və xüsusi qabiliyyət tələb edən fənlər üçün yaradıcılıq formasında aparılır. İmtahan variantları tərtib olunarkən sualların çətinlik dərəcəsinin müxtəlifliyinə diqqət olunur ki, bu da bilik və bacarıqların qiymətləndirilməsinin təkmilləşdirilməsinə xidmət edilir. Yazılı keçirilən imtahanlar bitdikdən dərhal sonra yazı işləri şifrələnməyə göndərilir. Yazı işləri şifrələndikdən sonra xüsusi ayrılmış otaqlarda yoxlanma prosesi həyata keçirilir. Yazı işlərini yoxlanılmasında ədalətin və obyektivliyin təmin olunması təmin olunur.

Sessiyanın yekunlarına dair hesabatlar fakültələrdə və universitetin Elmi şurasında müzakirə olunur.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 1000 sözü keçməməsi məqsədəuyğundur)

## 8. Təhsil proqramına cəlb olunan professor-müəllim heyəti

**8.1. Akademik heyətin seçilməsi və tətbiq edilən yanaşmanın şəffaf və ictimaiyyət üçün əlçatanlığı vəziyyəti**

Akademik heyətin tədrisə cəlb olunması üçün proqram rəhbərliyi tərəfindən müvafiq kafedralara hər bir semestrdən öncə müraciət olunur. Kafedra rəhbərliyi həmin semestr ərzində tədris olunacaq fənlərə ixtisaslaşmış mütəxəssislərin cəlb olunması üçün köməklik göstərir. Kafedra tərəfindən İDP rəhbərliyinə hər fənn üzrə 2 nəfər müəllimin namizədliyi verilir və onların CV və demo videoları göndərilir. Daxil olan məlumatlar həm BMU İDP həm də İNHA Universitetinin rəhbərliyi tərəfindən yoxlanılır və uyğun namizədlər seçilir. İlkin olaraq BMU İDP rəhbərliyinin yoxlanışından keçən sənədlər, İNHA rəhbərliyinə göndərilir. Onların rəyi alındıqdan sonra təqdimat hazırlanaraq seçilmiş müəllimlərin həmin semestr ərzində tədrisə cəlb olunması üçün universitetin rektoru tərəfindən əmr verilir. Akademik heyət bir tədris ilində 2 dəfə olmaqla Payız və Yaz semestrləri üzrə seçilir və semestr sonu tələbələrin iştirakı ilə aparılan məmnunluq sorğusuna əsasən qiymətləndirmələr aparılır.

Akademik heyətin seçimi tam başa tutmadığı halda daha yaxşı mütəxəssislərin cəlb edilməsi üçün isə beu.edu.az saytında vakansiya elanları verilir. Mütəmadi olaraq hər semestr öncəsi rəsmi saytın elanlar bölməsində proqramda müəyyən fənləri tədris etmək üçün vakansiya müraciəti olunur.

2020/2021-ci tədris ili üzrə payız semestrində 18 nəfər müəllim, yaz semestrində 9 nəfər müəllim, yay semestrində 2 nəfər müəllim olmaqla, ümumi 29 nəfər müəllim, 2021/2022-ci tədris ilinin payız semestri üzrə 36 nəfər müəllim, yaz semestri üzrə 4 nəfər müəllim olmaqla ümumi 30 nəfər müəllim, 2022/2023-cü tədris ilinin payız semestri üzrə 48 nəfər müəllim, yaz semestrində isə 12 nəfər müəllim olmaqla ümumi 60 nəfər müəllim tədrisə cəlb olunmuşdur. 2023/2024-cü tədris ilinin payız semestrində hazırda 53 nəfər müəllim tədris prosesində iştirak etməkdədir. Cari tədris ilinin payız semestrində 32 nəfər BMU-nun tam ştat müəllimidir.

**2020/2021-ci tədris ili üzrə kafedralara aid statistik göstəricilər:**

| Kafedranın adı | Kafedra müdirinin adı | Proqram üzrə tədris edən akademik heyətin sayı (əsas iş yeri olanlar) | Kafedraya əvəzçilik qaydada cəlb edilmiş akademik heyətin sayı | Kafedrada fəaliyyət göstərən saathesabı qaydada cəlb edilmiş akademik heyətin sayı | Tədris ili üzrə dərs saatlarının miqdarı |
|---|---|---|---|---|---|
| Riyaziyyat | r.e.d. Rakib Əfəndiyev | 1 | yoxdur | 1 | 180 |
| Fizika | f.ü.f.d.dosent Razim Bayramlı | 1 | 1 | yoxdur | 240 |
| Xarici dillər | Dos. Ətrabə Gül | 1 | yoxdur | 14 | 2310 |
| İnşaat | Dos..Azər Əhmədov Dəmir | 2 | yoxdur | yoxdur | 105 |
| Kimya-Biologiya | Dos. Elmar İmanov | 1 | yoxdur | yoxdur | 45 |
| Kompüter və İnformasiya Texnologiyaları | Dos. Manafəddin Namazov | 3 | yoxdur | yoxdur | 135 |
| Avtomatika və Elektroenergetika | t.e.d.Prof. Ramiz Hümbətov | 1 | yoxdur | 2 | 90 |
| Ümumi Fənlər | Dos. Hümeyrə Mustafayevə | 2 | yoxdur | yoxdur | 90 |

**2021/2022-ci tədris ili üzrə kafedraların statistik göstəriciləri:**

| Kafedranın adı | Kafedra müdirinin adı | Proqram üzrə tədris edən akademik heyətin sayı (əsas iş yeri olanlar) | Kafedraya əvəzçilik qaydada cəlb edilmiş akademik heyətin sayı | Kafedrada fəaliyyət göstərən saathesabı qaydada cəlb edilmiş akademik heyətin sayı | Tədris ili üzrə dərs saatlarının miqdarı |
|---|---|---|---|---|---|
| Riyaziyyat | r.e.d. Rakib Əfəndiyev | 3 | yoxdur | 2 | 240 |
| Fizika | f.ü.f.d.dosent Razim Bayramlı | 1 | 1 | yoxdur | 465 |
| Xarici dillər | Dos. Ətrabə Gül | 4 | yoxdur | 11 | 5760 |
| İnşaat | Dos.Azər Əhmədov Dəmir | 3 | yoxdur | 3 | 375 |
| Kimya-Biologiya | Dos. Elmar İmanov | 1 | yoxdur | yoxdur | 135 |
| Kompüter və İnformasiya Texnologiyaları | Dos. Manafəddin Namazov | 2 | 1 | yoxdur | 405 |
| Avtomatika və Elektroenergetika | t.e.d.Prof. Ramiz Hümbətov | 3 | yoxdur | yoxdur | 435 |
| Ümumi Fənlər | Dos. Hümeyrə Mustafayevə | 2 | yoxdur | yoxdur | 240 |

**2022/2023-cü tədris ili üzrə kafedraların statistik göstəriciləri:**

| Kafedranın adı | Kafedra müdirinin adı | Proqram üzrə tədris edən akademik heyətin sayı (əsas iş yeri olanlar) | Kafedraya əvəzçilik qaydada cəlb edilmiş akademik heyətin sayı | Kafedrada fəaliyyət göstərən saathesabı qaydada cəlb edilmiş akademik heyətin sayı | Tədris ili üzrə dərs saatlarının miqdarı |
|---|---|---|---|---|---|
| Riyaziyyat | r.e.d. Rakib Əfəndiyev | 6 | 1 | 3 | 315 |
| Riyaziyyat və İnformatika | Hümbət Əliyev | 1 | yoxdur | yoxdur | 135 |

| | | | | | |
|---|---|---|---|---|---|
| Fizika | f.ü.f.d.dosent Razim Bayramlı | 1 | 1 | yoxdur | 465 |
| Xarici dillər | Dos. Ətrabə Gül | 5 | yoxdur | 15 | 8520 |
| İnşaat | Dos.Azər Əhmədov Dəmir | 9 | 1 | 1 | 780 |
| Kimya-Biologiya | Dos. Elmar İmanov | 2 | yoxdur | yoxdur | 135 |
| Kompüter və İnformasiya Texnologiyaları | Dos. Manafəddin Namazov | 5 | 3 | 2 | 1080 |
| Avtomatika və Elektroenergetika | t.e.d.Prof. Ramiz Hümbətov | 3 | 2 | 1 | 555 |
| Ümumi Fənlər | Dos. Hümeyrə Mustafayevə | 3 | yoxdur | 1 | 300 |

**2023-cü tədris ilinin Payız semestri üzrə kafedraların statistik göstəriciləri:**

| Kafedranın adı | Kafedra müdirinin adı | Proqram üzrə tədris edən akademik heyətin sayı (əsas iş yeri olanlar) | Kafedraya əvəzçilik qaydada cəlb edilmiş akademik heyətin sayı | Kafedrada fəaliyyət göstərən saathesabı qaydada cəlb edilmiş akademik heyətin sayı | Tədris ili üzrə dərs saatlarının miqdarı |
|---|---|---|---|---|---|
| Riyaziyyat | r.e.d. Rakib Əfəndiyev | 5 | 0 | 2 | 450 |
| Riyaziyyat və İnformatika | Hümbət Əliyev | 1 | yoxdur | yoxdur | 90 |
| Fizika | f.ü.f.d.dosent Razim Bayramlı | 2 | 1 | yoxdur | 465 |

| | | | | | |
|---|---|---|---|---|---|
| Xarici dillər | Dos. Ətrabə Gül | 5 | yoxdur | 14 | 4530 |
| İnşaat | Dos.Azər Əhmədov Dəmir | 5 | yoxdur | 1 | 360 |
| Kimya-Biologiya | Dos. Elmar İmanov | 2 | yoxdur | yoxdur | 135 |
| Kompüter və İnformasiya Texnologiyaları | Dos. Manafəddin Namazov | 4 | 2 | 1 | 540 |
| Avtomatika və Elektroenergetika | t.e.d.Prof. Ramiz Hümbətov | 3 | 3 | yoxdur | 495 |
| Ümumi Fənlər | Dos. Hümeyrə Mustafayevə | 4 | yoxdur | yoxdur | 210 |

Cari tədris ilinin payız semestrində 32 nəfər BMU-nun tam ştat müəllimidir.

**8.2 Akademik heyətin beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarında iştirakı vəziyyəti**

İDP-nin təşkilatçılığı ilə bəzi əməkdaşlar ixtisas sahələrinə görə beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarında iştirak etmişdir. İnformasiya texnologiyaları ixtisası üzrə universitetin 7 əməkdaşı Cənubi Koreyanın İNHA universitetində təşkil olunan təlimlərdə iştirak etmişdir (11 iyul – 1 avqust 2022). Təlimlərdə məqsəd qarşılıqlı təcrübə mübadiləsi etmək, professor-müəllim heyətinin bilik və bacarıqlarının, təhsil təcrübəsinin inkişaf etdirmək olmuşdur. Cari ilin 10 iyul-18 avqust tarixlərində isə inşaat mühəndisliyi, elektrik mühəndisliyi ixtisasları üzrə 16 nəfər müəllim İNHA universitetində beynəlxalq səviyyəli peşəkar təlim proqramında iştirak etmişdir.

İllər üzrə təlimlərdə iştirak edən professor/müəllim heyətinin siyahısı:

| İl | Təlim mövzusunun adı | Təlimçinın adı və soyadı | Təlimin keçirildiyi yer | Tarix | Təlimdə iştirak edən akademik/administrativ heyətin adları |
|---|---|---|---|---|---|
| 2022 | Operating System<br>System Programming<br>Database<br>Digital integrated circuit design<br>Python<br>Machine learning<br>Embedded System Design<br>Computer Architecture<br>3D Display Lab (Lab tour)<br>Visual Computing Lab 1 (Lab Tour)<br>Visual Computing Lab 2 (Lab Tour) | Kim, ki chang<br>Kim ki chang<br>Kim, Yoo Sung<br>Seo, Youngkyo<br>Yoo, Kwan Hee<br>Aziz, Nasridinov<br>Park, Jaehyun<br>Park, Jaehyun<br>Park, Jae Hyeung<br>Park, In Kyu<br>Hong, Sung Eun | Koreya Respublikası | 11 iyul – 19 avqust 2022-ci il | **İnformasiya texnologiyaları**<br>1. Asif Qanbayev<br>2. Əhməd Əhmədzadə<br>3. Əli Həsənov<br>4. Etibar Seyidzadə<br>5. Gülbiçə Zahidova<br>6. Rasim Mahmudov<br>7. Xəyalə İbrahimova |
| 2023 | Structural Engineering<br>Geotechnical Engineering<br>Pavement Engineering<br>Construction A.I.<br>Smart Construction & BIM<br>Geographic Information Engineering<br><br>Power System Engineering<br>Electronic Circuits<br>Mobile Communication<br>Nano Electronic Devices<br>Artificial Intelligence<br>Robotics<br>Smart Grid<br>Electric Vehicle<br>Power Electronics<br>Electronic Displays | Lee, Jong Han<br>Song, Ki Il<br>Jeong, Jin Hun<br>Park, Yeun Chul<br>Na, Sunhong<br>Cho, Woosug<br><br>Kim, Insu<br>Kim, Tae In<br>Kim, Duk Kyung<br>Kim, Tae In<br>Jo, Geun Sik<br>Cho, Younggeun<br>Kim, Insu<br>Choi, Gilsu<br>Kim, Jae Kuk<br>Shin ,Paik Kyun | Koreya Respublikası | 10 iyul- 18 avqust 2023-cü il | **İnşaat Mühəndisliyi:**<br>1. Afər Əlifov<br>2. Hüseyn Mirzəyev<br>3. Fərzi Əmirov<br>4. Mirzəcan Sultanov<br>5. Pərviz Müseyibli<br>6. Aqil Kazımov<br>7. Ləman Abdullazadə<br>8. Aydan Tahirova<br>9. İbrahim Dərbəndli<br><br>**Elektrik mühəndisliyi:**<br>1. Manafəddin Namazov<br>2. Ramiz Hümbətov<br>3. Elçin Gözəlov<br>4. Elçin Qurbanov<br>5. Hamed Kağazçı<br>6. Lətif Məmmədov<br>7. Cavid Ədilov |

Təlimlərdə iştirak edən ümumi 23 nəfər professor/müəllim heyətinin 14-ü İDP proqramında müəyyən fənlər üzrə tədris prosesinə cəlb edilmiş müəllimlərdir.

### 8.3 Ştatda olan və cəlb olunan akademik heyət arasında dərs yükünün bölgüsündə dürüst və şəffaf meyarların mövcud olması vəziyyəti

Ştatda olan və cəlb olunan akademik heyət arasında dərs yükünün bölgüsü "Ali təhsil pilləsinin dövlət standartı və proqramı" na, "Təhsil, təlim-tərbiyə müəssisələrini rəhbər, inzibati-təsərrüfat, tədris-köməkçi və digər işçilərinin tutduqları vəzifə ilə yanaşı ixtisasları üzrə dərs yükü (pedaqoji iş) aparmaları haqqında normalar"a, "Professor-müəllim heyətinin tədris yükünün planlaşdırılması və hesablanması haqqında Əsasnamə"yə, "Professor-müəllim heyətinin tədris işi üçün vaxt normasının müəyyənləşdirilməsi, elmi-tədqiqat, elmi-metodiki və digər işlərin əsas növləri barədə" və "Təhsil müəssisələrinin pedaqoji işçilərin dərs yükü normalarının müəyyən edilməsi haqqında" Nazirlər Kabinetinin qərarına uyğun aparılır. Bir ştat müəllimin tədris yükü 550-600 saat (ən az 60% auditoriya saatı, 40% isə auditoriyadan kənar saatlar olmaqla) nəzərdə tutulmuşdur.

### 8.4 Kənardan cəlb edilən professor-müəllim heyətinin zəruriliyi

BMU-da kadr hazırlığı aparılan ixtisaslar əsasən mühəndislik və iqtisadiyyat yönümlü ixtisaslar olmasına baxmayaraq, proqramda tədrisin ingilis dilində aparılması bu dildə

ixtisaslaşmış mütəxəsislərin sayında çatışmazlıq olması problemi yaranmışdır. Bu səbəbdən yüksək səviyyədə bilikli olan ingilis dilli mütəxəssislərin tədrisə cəlb olunması kadr hazırlığının keyfiyyətini artırır, tələbələrin nəzəri biliklərinin praktik fəaliyyət və əmək bazarının ehtiyaclarına uyğunlaşdırılmasına kömək edir. Həmçinin proqramın əsas şərtlərindən olan Koreya dili üçün bütün müəllimlərin kənardan tədrisə cəlb edilməsi saathesabı müəllimlərə olan tələbatı artırır. Belə ki, cari semestrdə tədris edən 53 nəfər müəllimin 11-i Koreya dili müəllimidir.

BMU-İNHA İDP-də tədris prosesində iştirak edən professor-müəllim heyətinin təqribən 40%-i kənardan cəlb olunur. Bu heyətə yarımştat və saathesablı şəkildə cəlb olunan əməkdaşlar daxildir.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 1000 sözü keçməməsi məqsədəuyğundur)

## 9. Təhsil proqramı üzrə tələbəyönümlü tədris

### 9.1 Təhsilalanın fərdi tədris planının tərtib edilməsində iştirak etməsi

BMU-İNHA İDP-də təhsilalanlar hər tədris ilinin yaz semestrinin sonunda növbəti tədris ilinin payız semestri üçün elektron məlumat sistemindəki şəxsi kabinetlərindən dərslərini seçərək fərdi tədris planlarını tərtib və təsdiq edirlər. Sonrakı mərhələdə tyutor tələbənin fərdi tədris planını yoxlayır və uyğun olduğu halda təsdiq edir. Əgər hər hansı bir uyğunsuzluq aşkar edilərsə, tələbənin tərtib etdiyi fərdi tədris planı tyutor tərəfindən ləğv edilir və tələbəyə müvafiq düzəlişlərlə bağlı tövsiyələr verilir. Tələbə yenidən fərdi tədris planını tərtib edib və tyutor təsdiqləyir. Anoloji olaraq payız semestrinin sonunda yaz semestri üçün fərdi tədris planı tərtib olunur.

### 9.2 Təhsilverənlərin və akademik məsləhətçilərin (tyutorların) tələbələr tərəfindən Bolonya prinsiplərinə uyğun olaraq seçiminin sərbəstliyinin təmin edilməsi

Mövcud təhsil sistemində təhsilalanlara təhsilverənlərin və akademik məsləhətçilərin (tyutorlar) seçimi nəzərdə tutulmamışdır. Təhsilalanlara təklif olunan dərs cədvəlləri akademik qruplara uyğun tərtib edildiyindən təhsilalanlar fərdi tədris planlarını tərtib edərkən təhsilverənləri seçmə imkanları olmur.

### 9.3 Tələbələr arasında keçirilmiş rəy sorğusunun istiqamətləri, intensivliyi və səmərəliliyinin inkişaf dinamikası

Bakı Mühəndislik Universiteti tədrisin keyfiyyətinin yüksəldilməsi, maddi-texniki bazanın möhkəmləndirilməsi, tədrisdə və idarəetmədə mövcud vəziyyəti qiymətləndirmək və bunun əsasında səmərəli tədbirlər həyata keçirmək məqsədilə müxtəlif istiqamətlərdə anket sorğuları təşkil etməkdədir. Bu məqsədlə universitetin Elektron Məlumat Sistemində mövcud olan "Anket" modulunda hazırki və daha öncəki illərə aid müxtəlif anketlərin nəticələri əlçatandır.

❖ **Tədris prossesini qiymətləndirmə anket sorğusu:**

2017-2018-ci tədris ilindən başlayaraq hər semestr ərzində tələbələr arasında universitetdə keçirilən bütün fənlər üzrə "Tədris prossesini qiymətləndirmə" anket sorğusu keçirilməkdədir. Ümumi olaraq BMU-İNHA İDP-də müəllimlər üzrə tədris prosesinin qiymətləndirilməsi istiqamətində 4 anket sorğusu keçirilmişdir.

Bu sorğuda semestrlərə görə iştirak edən respondent sayının inkişaf dinamikası:

- 2021-2022-ci tədris ilinin payız semestrində anket üzrə ümumi tələbə sayı: **72**
- 2021-2022-ci tədris ilinin yaz semestrində anket üzrə ümumi tələbə sayı: **31**
- 2022-2023-cü tədris ilinin payız semestrində anket üzrə ümumi tələbə sayı: **133**
- 2022-2023-cü tədris ilinin yaz semestrində anket üzrə ümumi tələbə sayı: **263**

Sorğunun məqsədinə uyğun məmnunluq səviyyəsinin inkişaf dinamikası:

- 2021-2022-ci tədris ilinin payız semestri: Ortalama: **83.12%**
- 2021-2022-ci tədris ilinin yaz semestri: Ortalama: **75.4%**
- 2022-2023-cü tədris ilnin payız semestri: Ortalama: **81.49%**
- 2022-2023-cü tədris ilnin yaz semestri: Ortalama: **87.04%**

❖ **Tələbə məmnuniyyəti anketi:**

2022-2023-cü ildən etibarən universitetdə "Tələbə məmnuniyyəti" anket sorğusu keçirilməyə başlanmışdır. Bu anket sorğusunda iştirak edən İDP tələbələri arasından respondentlərin sayı 242 nəfər olmuşdur. Sorğunun məqsədinə uyğun məmnunluq səviyyəsi 68.92% - dir.

**9.4. Tələbə rəylərinin (akademik heyət, xidmətlərin keyfiyyəti və ümumi məmnunluq səviyyəsi və s. haqqında) müxtəlif vasitələrlə sistemli şəkildə toplanması və qərarvermə proesesində istifadə edilməsi vəziyyəti**

Bakı Mühəndislik Universiteti Keyfiyyətin Təminatı şöbəsi, 2021-2022 və 2022-2023-cü tədris illəri üzrə müxtəlif səpkidə anket sorğuları keçirmişdir. Anket sorğuları elektron formada, anonimlik tam şəkildə qorumaqla universitetin Personal Məlumat Sisteminin (PMS) Anket modulunda təşkil olunmaqdadır. Anket sorğusu intranet və internet üzərindən universitetin əməkdaşları, professor-müəllim və tələbə kollektivi üçün əlçatanlığı https://pms.beu.edu.az/index.php?mod=anket linki üzərindən təmin edilmişdir. Anket sorğusunun nəticələri sorğunun əlaqələndirdiyi hər kəs üçün açıq olur. Daha sonra nəticələr arxivlənərək qorunur və bu məlumatlar istənilən vaxt əldə oluna bilir.

**Tədris prosesinin qiymətləndirilməsi (müəllimlər üzrə)**

2021/2022-ci və 2022/2023-cü tədris illərində keçirilən anket sorğusunda tədris prosesinin qiymətləndirilməsi məqsədilə tələbələrə 11 sual ünvanlandırılmışdır. Anket sorğusunun nəticələri haqqında BMU-İNHA İDP rəhbərliyinin müzakirələri olmuşdur.

**9.5 Təhsilalanların şikayət və/və ya təklifləri üçün müxtəlif vasitə və mexanizmlərin mövcudluğu vəziyyəti**

Təhsilalanlar şikayət və təkliflərini, istətikləri zaman, ilk növbədə akademik məsləhətçilərinə edirlər. Sonra, lazım olarsa, dekana ərizə ilə müraciət edə bilərlər. Rektora birbaşa ərizə ilə müraciət edənlər də olur. Bu halda rektor ərizəni müvafiq prorektora və dekana yönləndirir. Rəsmi şikayətlər rəsmi olaraq cavablandırılır və sənədləşdirilir.

Tələbələr elektron poçt vasitəsilə də şikayətlərini bildirməkdə sərbəstdirlər. Bəzən də bu imkandan artıqlaması ilə istifadə edirlər. Eyni anda bir şikayəti onlarla ünvana göndərirlər.

İmtahan sessiyası müddətində universitet üzrə rəsmi Appelyasiya komissiyası təşkil olunur. İmtahan nəticəsindən narazı olan bütün tələbələr, müraciətləri əsasında, qərərgahda cavab kağızının yoxanılması ilə tanış edilir. Əgər yoxlamanın nəticəsindən tələbənin əsaslı narazılığı olarsa, o Appelyasiya komissiyasına ərizə yazır. Komissiya tələbənin iştirakı ilə yoxlamanın nəticəsini dəyərləndirir və müvafiq qərar verir.

**9.6 Təhsilalanların inkişafına nəzarət edən və akademik problemlərin həllində dəstək göstərən müvafiq kvalifikasiyalara sahib akademik məsləhətçilərin (tyutorlar) mövcudluğu vəziyyəti**

Kredit sistemi ilə tədrisin təşkilində akademik məsləhətçilərin (tyutorların) rolu böyükdür. Onlar magistr dərəcəsinə malikdirlər və dekana tabedirlər. Dekanlıqda və ya müvafiq kafedralarda işləyirlər. İxtisas qruplarının tyutorlara təhkim olunmasında onların ixtisaslarının uyğunluğu nəzərə alınır. Tədris prosesinin bütün mərhələlərində, fənn və müəllim seçimindən başlayaraq müvafiq kreditləri qazananadək tyutorlar tələbələrlə sıx əlaqədə olurlar.

**9.7 Tələbələr və təhsilverənlər, eləcə də tələbələr və akademik məsləhətçilər (tyutorlar) arasında müxtəlif vasitələrlə (üzbəüz, onlayn və s.) kommunikasiyanın həyata keçirilməsi vəziyyəti**

Akademik məsləhətçilər tələbələrlə əsasən qrup nümayəndələri, lazım gəldikdə isə birbaşa əlaqə saxlayırlar. Fakültənin dekan və dekan müavinləri, müvafiq kafedra müdirləri və akademik məsləhətçiləri qrup nümayəndələri ilə semester ərzində bir-iki dəfə ümumi yığıncaq formasında görüşürlər. Ayrıca qrup tələbələri ilə akademik məsləhətçilər mütəmadi görüşür, onların şikayət və təkliflərini dinləyir və dekana çatdırır.

Həm tələbələrin, həm də təhsilverənlərin istifadə etdikləri koperativ email hər iki tərəf arasında daha sürətli kommunikasiyanın təmin edilməsinə xidmət edir. Bundan başqa akademik məsləhətçi və qrup nümayəndələrinin daxil olduğu WhatsApp qrupları hər zaman onların arasında ümumi, interaktiv kommunikasiyanı təmin edir.

Pandemiya dövründə tələbələrlə Google Meet platforması vasitısilə onlayn kommunikasiya davamlı ilə həyata keçirilmişdir. Postpandemiya dövründə daha çox üzbəüz görüşlərə üstünlük verilsə də, zərurət yarandıqda online kommunikasiya imkanlarından istifadə edilir.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 1000 sözü keçməməsi məqsədəuyğundur)

## 10. Təhsil proqramının monitorinqi

### 10.1. Əmək fəaliyyətinə cəlb edilən yerli professor-müəllim heyətinin akademik fəaliyyətinin keyfiyyətinin monitorinqinə dair məlumat

İNHA Universiteti tərəfindən BMU-İNHA İDP Təhsilə dəstək komitəsi yaradılmışdır və monitorinq bu komitə tərəfindən aparılır. Təhsil proqramının monitorinqi strategiyası və fəaliyyət planı mövcuddur. İxtisaslar üzrə təhsil proqramının məzmunu və mənimsənilmə səviyyəsi təhsilin nəticələrinə görə təhlil olunur, təhsilalanların hansı tədris üsullarına üstünlük verməsi izlənilir. Təhsil proqramı üzrə təlim nəticələrinin əldə edilməsinə nəzarət olunur. Təlim nəticələrinə dair hesabatlar hazırlanır və təhlil olunur. Monitorinq nəticəsində daha üstün təlim metodlarının seçilməsi, məzmun baxımından bir sıra mövzuların yenisi ilə əvəz olunması, qiymətləndirmə meyarlarına yenidən baxılması və s. kimi əmək bazarının tələblərini və informasiya texnologiyalarının müasir imkanlarının tətbiqini nəzərə almaqla ixtisasların peşə hazırlığının əsaslarını təşkil edir və burada əsas məqsəd təlim nəticələrinin əldə olunmasını təmin etməkdən ibarətdir.

2020/2021-ci tədris ili üçün monitorinq 2021-ci ilin Avqust-Noyabr ayları ərzində pandemiya səbəbilə onlayn formada keçirilmişdir.

2021/2022-ci tədris ili üzrə isə 2022-ci il Dekabr ayında keçirilmişdir. Bu monitorinq üçün 9 nəfər Bakıya səfər etmişdir. İNHA Universiteti tərəfindən təşkil olunan monitorinq tələbə, müəllim, və idarə heyətinə yönəldilmişdir: tələbələr Fizika və Riyaziyyat fənləri üzrə imtahanda iştirak edirlər, və həmçinin hər ixtisas qrupundan 7-11 tələbənin iştirakı ilə ayrılıqda müsahibələr keçirilir. Müəllimlərin fənn portfolioları yoxlanılır və ümumi qərarlar verilir, və həmçinin 10-15 müəllimin iştirakı ilə müsahibələr keçirirlir. Monitorinq çərçivəsində müəllim və tələbələrlə yanaşı, idarə heyəti - rektor, prorektor, BMU-İNHA İDP-nin proqram direktoru ilə müsahibə keçirilir. Müsahibədə qeyd olunan fikirlər, narazılıqlar, tövsiyələr məxfilik qorunaraq monitorinqin sonunda hesabata əlavə edilir.

Monitorinq nəticələrinə dair Hesabat hazırlanılır və əl kitabçası formasında İDP inzibati heyətinə paylanılır. Monitorinqdə fənlərin fənn proqramları tərtib olunarkən bu fənnin tədris proqramlarında öz əksini tapan təlim nəticələri əsas götürülür. Bu mərhələdə fənn proqramlarının təlim nəticələrinə uyğunluğu nəzərdən keçirilir və təkmilləşdirilir. Sillabuslar hazırlanarkən və fənn tədris olunarkən tələbələrin təlim nəticələrini necə əldə etməsi diqqətə alınır. Semestr daxili və semester sonu qiymətləndirmələr, sərbəst işlərin təqdim olunması zamanı tələbələrdə bu bilik və bacarıqların formalaşması yoxlanılır. Hesabatda fənn portfolioları ilə bağlı nəticələrə ayrıca yer verilir və hər fənn üzrə müsbət və mənfi cəhətlər qeyd olunaraq, həmin fənni tədris edən müəllimlərə qeyd olunanları növbəti tədris ilində nəzərə almaqları üçün paylaşılır. Fənn porfoliolarına əsasən tədrisin keyfiyyətinə dair rəylər əks olunur ki, tədris ilinin sonunda kafedradaxili müzakirələrdə bu məsələlər müzakirə olunur və ehtiyac olarsa, növbəti tədris ilində bu fənlərin sillabusları hazırlanarkən bu məsələlər nəzərə alınır.

Müəllimlər tərəfindən təhvil verilən fənn portfoliosuna daxildir:

**1. Survey for Professors in BEU**
**2. Content of Subject portfolio:**

1) Course Syllabus 2) Student Attendance Sheets 3) Total grade calculation table for all students (midterm & final) 4) Lecture Materials (presentations, any course teaching materials) 5) Questionnaire: Quiz / mid-term / final examinations 6) Each student's answer sheets for Quiz / mid-term / final examinations 7) Course CQI report 8) Analysis of student performance

**10.2. Tədris prosesinin nəticələrinin qiymətləndirməsinə dair məlumat**

BMU-İNHA İDP-də inzibati heyətin dərslərə davamlı müşahidəsi əsasında aparılır. Tədris prosesinin qiymətləndirilməsi semestr ərzində və sonunda keçirilir. Tədris müddəti boyunca dərslər müşahidə edilir və tələblərin rəyləri alınır. Narazılıqlar olduğu şəkildə həmin fənnin tədrisi ilə məşğul olan müəllim və kafedra müdiri ilə görüş keçirilir və müzakirələr aparılır. Hər semestr sonu tələbələrə keçirilən fənn və tədrisi həyata keçirən müəllim ilə bağlı sorğular göndərilir. Suallar tədrisin keyfiyyətini qiymətləndirmək, müəllim tərəfindən istifadə olunan metodların effektivliyini ölçmək məqsədi daşıyır. Sorğu və müşahidə nəticələrinə əsasən kafedra müdirləri və müəllimlərin birgə iştirakı ilə görüş keçirilir. Yaranan çətinliklərin nə dərəcədə həll edilə bilməsi, müəyyən təlimat və məlumatlandırma xarakterli görüşlərin keçirilməsi və növbəti tədris ili üçün əməkdaşlığın davam etdirilməsi üzrə qərarlar alınır.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 1000 sözü keçməməsi məqsədəuyğundur)

## 11. Təhsil proqramının davamlı təkmilləşdirilməsi və yenilənməsi

**11.1 Təhsil proqramı üzrə keçirilən monitorinqin faydaları və daxili keyfiyyət təminatı sisteminə töhfəsinin qiymətləndirilməsinin aparılması vəziyyəti**

BMU-İNHA İDP-də təhsil proqramlarının monitorinqi zamanı əsas istiqamət təhsil proqramının tətbiqi haqqında məlumat və rəylər toplamaqdır. Bu prosesdə həm təhsilalanların, həm də işəgötürənlərin fikirlərinin öyrənilməsi mühüm məsələ kimi diqqətdə saxlanılır. Hazırlanan yekun hesabatlara əsasən növbəti tədris ilindən proqram daxilində nələr edilməli, dəyişdirilməli yaxud yeniliklər gətirilməli olduğuna dair qərarlar verilir.

**11.2 Təhsil proqramı üzrə təlim nəticələrinin əldə edilməsinə nəzarət imkanlarının mövcudluğu**

İNHA Universiteti tərəfindəm keçirilən monitorinqlərdə Qlobal Təhsil Layihəsi Qrupunun nümayəndələri tərəfindən İDP üzrə təhsilin cari şərtlərinin yoxlanılması, rast gəlinən problemlərin diaqnostikası, proqramın təkmilləşdirilməsi üçün ideyalar layihəsinin hazırlanması, bununla da təhsilin keyfiyyətinin daha da yüksəldilməsinə nail olmaq məqsədilə həyata keçirilir. Bu zaman fənlərin fənn proqramları tərtib olunarkən bu fənnin tədris proqramlarında öz əksini tapan təlim

nəticələri əsas götürülür. Bu proqramlar fənni tədris edən və təcrübəli müəllimlər tərəfindən hazırlanır. Monitorinq mərhələləsində mütəxəssislərdən rəy alınır və hesabat alınaraq kafedralra təqdim edilir. Bu hesabat kafedra iclaslarında müzakirə olunur. Bu mərhələlərdə fənn proqramlarının təlim nəticələrinə uyğunluğu nəzərdən keçirilir və təkmilləşdirilir. Sillabuslar hazırlanarkən və fənn tədris olunarkən tələbələrin təlim nəticələrini əldə etməsi diqqətə alınır. Semestr daxili və semester sonu qiymətləndirmələr, sərbəst işlərin təqdim olunması zamanı tələbələrdə bu bilik və bacarıqların formalaşması yoxlanılır. Tədris ilinin sonunda kafedradaxili müzakirələrdə bu məsələlər müzakirə olunur və ehtiyac olarsa, növbəti tədris ilində bu fənlərin sillabusları hazırlanarkən bu məsələlər nəzərə alınır.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 1000 sözü keçməməsi məqsədəuyğundur)

## 12. Təhsil proqramı üzrə təhsilalanlara karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi

BMU-İNHA İDP-də ilk qəbul ili üzrə təhsil alan tələbələr hazırda 4-cü kursda təhsil almaqdadırlar. Proqram üzrə ilk məzunların olması 2024-cü ildə gözlənilir.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 1000 sözü keçməməsi məqsədəuyğundur)

## 4. Təhsil proqramının özünütəhlil nəticələri

| Meyarlar | Yekun Bal | Uyğun deyildir | Qismən uyğundur | Əsasən uyğundur | Uyğundur |
|---|---|---|---|---|---|
| 1. Təhsil proqramı üzrə təhsilalanların qəbulu | 6 | | V | | |
| 2. Təhsil proqramı üzrə əvvəlki kvalifikasiyaların tanınması | 8 | | | | V |
| 3. Təhsil proqramı üzrə tədrisin təşkili | 55 | | | V | |
| 4. Təhsil proqramı üzrə tətbiq olunan tədris metodları və üsulları | 21 | | | V | |
| 5. Təhsil proqramı üzrə istifadə olunan təlim və tədris resursları | 41 | | | | V |
| 6. Təhsil proqramı üzrə tələb olunan təhsil infrastrukturu və maddi- texniki baza | 21 | | | V | |
| 7. Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi | 27 | | | V | |
| 8. Təhsil proqramına cəlb olunan professor-müəllim heyəti | 27 | | | V | |
| 9. Təhsil proqramı üzrə tələbəyönümlü tədris | 21 | | V | | |
| 10. Təhsil proqramının monitorinqi | 11 | | | | V |
| 11. Təhsil proqramının davamlı təkmilləşdirilməsi və yenilənməsi | 7 | | | V | |
| 12. Təhsil proqramı üzrə təhsilalanlara karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi | 12 | | | | V |
| **Təhsil proqramı üzrə akkreditasiya qiymətləndirilməsinin yekun nəticəsi** | 257 | | | | V |

## 4. Təşkilat komissiyasının gəldiyi nəticə və qeydlər

**Qeyd:** Təşkilat komissiyasının özünütəhlilin nəticəsi olaraq gəldiyi nəticələr və təhsil proqramının təkmilləşdirilməsi məqsədilə tövsiyyələri əks olunur.

**Təşkilat komissiyasının özünütəhlilin nəticəsi olaraq gəldiyi nəticələr aşağıdakılardır:**

1. Sinxronlaşdırılmış iki tədris proqramı (Kurrikulum) əsasında tam beynəlxalq keyfiyyətli unikal təhsil almaq imkanı;

2. 4 il bakalavr təhsili müddətində, yəni 3 il Azərbaycanda və 1 il Cənubi Koreyada oxumaqla, təhsil müddətinin sonunda tələbələrə təhsil aldıqları ixtisas üzrə həm BMU, həm də İNHA Universiteti tərəfindən 2 bakalavr diplomu təqdim edilməsi;

3. Seçilmiş yerli və xarici universitetlərin professor-müəllim heyəti ilə tədris imkanı;

4. Tələbələrin çoxdilli tədris mühitində təhsil ala bilməsi;

5. Müəllimlərin tədris olunan ixtisaslarla bağlı Fakültə Təlimində iştirak etməsi.

**Təhsil proqramının təkmilləşdirilməsi məqsədilə tövsiyyələri aşağıdakılardır:**

1. Laboratoriyaların daha da təkmilləşdirilməsi;

2. Sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris infrastrukturunun yaradılması;

3. Universitetin əməkdaşlarının və təhsilalanların gediş-gəlişini təmin etmək üçün nəqliyyat xidmətinin yaradılması;

4. Universitetin təhsil proqramı üzrə istehsalat-təcrübə bazasının yaradılması.

Ali təhsil müəssisəsi Təhsil Proqramı və hər fənn üzrə gözlənilən təlim nəticələrini müəyyən etməlidir. *Aşağıdakı cədvəllərdə ən azı 6 təlim nəticəsi sadalanmalıdır (Təhsil Proqramı və hər fənn üzrə ayrılıqda)*

| **Təhsil Proqramının təlim nəticələri (PTN)** |
|---|
| PTN 1 - Ən qabaqcıl elmi nailiyyətlərdən, innovativ təlim-tədris texnologiyalarından yararlanaraq, mühəndislik sahəsində Azərbaycanda 21-ci əsrin tələblərinə cavab verən yeni nəsil mütəxəssislər yetişdirmək; |
| PTN 2 - Mühəndislik sahəsində Azərbaycanın ali təhsil sisteminin məzmun və keyfiyyət göstəricilərini nəzərə alaraq BMU-İNHA ikili diplom proqramı vasitəsilə mühəndislik sahəsinin müasirləşdirilməsinə dəstək göstərmək; |
| PTN 3 - Məzunların 4 ixtisas: İnformasiya texnologiyaları, Elektrik mühəndisliyi, Elektronika mühəndisliyi və İnşaat mühəndisliyi sahələri üzrə beynəlxalq təhsil, təhlil və inkişaf sahəsində bacarıqlar yiyələnməsini təmin etmək. |
| PTN 4 |
| PTN 5 |

| **"Kompüter alqoritmləri" Fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 - Dinamik-proqramlaşdırma paradiqmasını təsvir edə və alqoritmik dizayn vəziyyətinin nə vaxt tələb olunduğunu izah edir; |
| FTN 2 - Alqoritmlərin asimptotik performansını təhlil edir; |
| FTN 3 - Müxtəlif proqramlaşdırma dillərində mürəkkəb alqoritmləri həyata keçirir; |
| FTN 4 - Müxtəlif növ alqoritmlər qura və təhlil edir; |
| FTN 5 - Alqoritmləri mürəkkəblik dərəcəsinə görə fərqləndirir; |
| FTN 6 - Asimptotik davranışları elementar tərkibi ilə alınan funksiyaların polinomlar, eksponensiallar və loqarifmik funksiyalarla müqayisə edir;. |

| **"Ehtimal nəzəriyyəsi və statistika" Fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 - Təsadüfi dəyişən, hadisənin ehtimalı, əlavə qaydalar və şərti də daxil olmaqla fundamental ehtimal anlayışları haqqında əsas bilikləri başa düşür; |
| FTN 2 - Bayes teoremi anlayışını başa düşür və tətbiq edir; |
| FTN 3 - Əsas statistik anlayışları və ölçüləri başa düşür və tətbiq edir; |
| FTN 4 - Mərkəzi həddi teorem anlayışını inkişaf etdirməyi bacarır; |
| FTN 5 - Binomial da daxil olmaqla bir neçə tanınmış paylamaları tapşırıqda tətbiq edir; |
| FTN 6 - Həndəsi, Normal və Eksponensial Paylanma Hipotez testlərini yerinə yetirir. |

| “Dövrə nəzəriyyəsi” Fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 - Dövrə nəzəriyyəsi üzrə mövzuları qavrayır; |
| FTN 2 - Kompleksin davranışını proqnozlaşdırmaq bacarığı elektrik sistemləri və daha yaxşılarını dizayn edir; |
| FTN 3 - İstənilən mürəkkəb sistem mühəndislərini təhlil edir; |
| FTN 4 - Elektrik ölçmə prinsiplərini alətlər və elektrik ölçmələri,tətbiq edir; |
| FTN 5 - Komponentlərin quruluşunu və müasir yarımkeçirici cihazların iş prinsipini təsvir edir. |

| “Elektrik maşınları və dizayn” Fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 - Elektrik maşınları və dizaynı üzrə xüsusiyyətləri elektrotexnika, elektron mühəndislik, energetika sahəsində tətbiq edir; |
| FTN 2 - Maqnit sxemləri və maqnit materialları üzərində işləyir; |
| FTN 3 - Transformatorlar, elektromexaniki-enerji-çevirmə prinsiplərini anlayır; |
| FTN 4 - Fırlanan maşınlar, sinxron maşınlar, çoxfazalı induksiya maşınlar və DC maşınlarının funksiylarını başa düşür. |

| “Struktur analiz” Fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 - Təyinatlı və qeyri-müəyyən konstruksiyalar, tikinti sahələrinə tətbiq olunan hesablama üsullarını bilir; |
| FTN 2 - Statik təyin olunan və qeyri-müəyyən konstruksiyaların hesablanması üsullarını tətbiq edir; |
| FTN 3 - Daxili qüvvəni statik təyin olunan və qeyri-müəyyən strukturlara hesablayır və təyin edir |
| FTN 4 - Konstruksiyaların hesablama sxemini qurur; |
| FTN 5 - Konstruksiyaların təsnifatı, yüklərin təsnifatı, əsas tənliklər və struktur analizinin prinsiplərini bilir. |

| “Fizika-1” Fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 - Mexanikanın əsaslarını və Molekulyar Fizika və Termodinamikanın bir hissəsi kimi öyrənir; |
| FTN 2 - Gündəlik həyatda baş verən müxtəlif klassik obyektlərin (insan, avtomobil, top, gəmi, raket və s.) mexaniki hərəkət qanunlarını (tərcümə və fırlanma) öyrənir; |
| FTN 3 - Cazibə qüvvəsinin əsaslarını, xüsusi nisbilik nəzəriyyəsinin əsaslarını, enerjinin saxlanması qanununu, impulsun saxlanması qanununu, bucaq momentinin qorunması qanununu, elastik və qeyri-elastik toqquşmalar qanunlarını başa düşür və fərqləndirir; |
| FTN 4 - Fizikanın əsas prinsipləri və onların tətbiqi haqqında möhkəm konseptual anlayışın formalaşdırılmasını başa düşür; |
| FTN 5 - Əsas prinsipləri yeni vəziyyətlərə və gündəlik həyat hadisələrinə tətbiq edir; |
| FTN 6 - Kəmiyyət məsələlərinin həllində məntiqi əsaslandırma və bacarıqlardan istifadə edir. |